Bakıda külək nəticəsində xəsarət alanların sayı 7-yə çatıb

Xəsarət alanların hər biri qadındır

İndiyə olan son məlumata görə, Bakıda hava şəraiti ilə əlaqədar küləyin törətdiyi fəsad nəticəsində 7 nəfər müxtəlif dərəcəli bədən xəsarəti alıb.

Yaralananlar Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasının briqadaları tərəfindən xəstəxanalara çatdırılıblar.

Bu barədə TƏBİB-dən bildirilib. Qeyd edilib ki, xəsarət alanların ümumi vəziyyəti stabil olaraq qiymətləndirilir.

Xəsarət alanların hər biri qadındır. Onlara hazırda TƏBİB-in tabeliyindəki tibb müəssisələrində tibbi yardım göstərilir.

Qaradağda 3 ədəd maşın yanaraq kül olub

Qaradağ rayonunun Sahil qəsəbəsində parklanmış 3 ədəd maşın yanaraq kül olub.

Trend xəbər verir ki, hadisə nəticəsində ölən və yaralananlar yoxdur. Hadisə yerinə polis və Fövqəladə Hallar Nazirliyinin əməkdaşları cəlb olunub. Hadisənin hansı səbəbdən baş verdiyi məlum deyil.

Gecə klubunda partlayışa görə 3 nəfər həbs edilib

Hadisə nəticəsində 1 nəfər ölüb, 37 nəfər xəsarət alıb, 14 avtomobil, 1 mənzil və 2 qeyri yaşayış obyektinə ziyan dəyib

Xəbər verildiyi kimi, aprelin 3-də gecə saat 03 radələrində paytaxtın Səbail rayonu ərazisində yaşayış binasının 1-ci mərtəbəsində yerləşən "Location" gecə klubunda partlayış baş verməsi nəticəsində 1 nəfərin ölməsi, 37 şəxsin müxtəlif dərəcəli bədən xəsarətləri alması, 14 avtomobil, 1 mənzil və 2 qeyri yaşayış obyektinə ziyan dəyməsi faktı əsasında Cinayət Məcəlləsinin müvafiq maddələri ilə başlanmış cinayət işinin istintaqı Baş Prokurorluğun İstintaq idarəsi tərəfindən aparılır.

(Davamı səh.2)

№ 57 (5579), 2022-ci il

Qiyməti 40 qəpik

ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 5 aprel 2022-ci il (çərşənbə axşamı)

Brüssel Paşinyanın bəlkə də son şansıdır

Avropa İttifaqı Şurasının səbri bir yerə qədərdir

Prezident İlham Əliyev aprelin 6-da Brüsseldə Ermənistanın Baş naziri Nikol Paşinyanla görüşəcək. Avropa İttifaqı Şurasının rəhbəri Şarl Mişelin vasitəçiliyi ilə keçirilməsi planlaşdırılan görüşdə iki ölkə arasında yekun sülh müqaviləsinin bağlanması yönündə müzakirələrin aparılması nəzərdə tutulub.

Azərbaycan tərəfi Brüssel görüşü barədə məlumatın media gündəminə çıxmasından bir müddət öncə Ermənistanla sülh müqaviləsinin imzalanması ilə bağlı şərtlərini açıqlayıb. 5 maddəlik təkliflərdən ibarət olan bu şərtlər qəbul edilərsə, Azərbaycanla yanaşı, bütün regiona, o cümlədən, Ermənistanın özünə ciddi dividendlər qazandırmış olacaq.

(səh.3)

Zelenskinin müharibəni dayandırmağa gücü yetmir

Ukrayna yaxın və orta perspektivdə geosiyasi qarşıdurmanın mərkəzi olaraq qalacaq



"Bizim uşaqlarımız uçan ulduzları yox, uçan raketləri çəkir. Musiqiçilərimiz smokinq əvəzinə zirehli gödəkçə geyinir". Bu sözləri Ukrayna Prezidenti Vladimir Zelenski "Qremmi" mükafatlandırma mərasimində videomüraciətlə çıxış edərkən deyib. Zelenski bildirib ki, Qərb ölkələri müharibə haqqında həqiqəti söyləməlidir:

"Bizi hər cür dəstəkləyin, amma susmaqla deyil. Sülh o zaman gələcək". Prezident vurğulayıb ki, NATO ölkələri Kiyevi hərbi təyyarələrlə təmin etməyəcək: "Qırıcı və ya bombardmançı təyyarələrə gəlincə, istənilən təyyarə bizə çox kömək edə bilərdi. Onlar insanların həyatını xilas edərdi və Rusiyanın səmada üstünlüyü olmazdı. Təəssüf ki, biz bunu əldə edə bilmirik". Zelenski Kiyevə əlavə Sovet və ya Rusiya istehsalı silahların veriləcəyinə ümid etdiyini bildirib:

(səh.3)

Ceyhun Bayramov və Gürcüstanın yeni xarici işlər naziri arasında telefon danışığı olub

4 aprel 2022-ci il tarixində Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və Gürcüstanın yeni xarici işlər naziri İliya Darçiaşvili arasında telefon danışığı baş tutub.

Xarici İşlər Nazirliyindən "Şərq"ə verilən məlumata görə, nazir Ceyhun Bayramov Gürcüstanın yeni Xarici İşlər nazirini təbrik edib və və ona yeni vəzifəsində uğurlar arzulayıb.

Tərəflər iki ölkə arasında dostluq və strateji tərəfdaşlıq münasibətlərin inkişafına dair fikir mübadiləsi aparıb və gələcəkdə bu əlaqələrin daha da inkişafına dair əminlik ifafə ediblər.

Bəxtini bir də sınayanlar

Ailələrində böyük münaqişə ocaqları yaradırlar

Millət yeni "qazanc" mənbəyi tapıb. Lotereyaya maraq gündən-günə artır. Metroların çıxışlarında uduşlu oyun üçün qələbəlik yaranır. İnsanlar xüsusilə də köşklərin qarşısında biletlərdən "üzlərinə gün doğacağı" ümidilə növbə gözləyirlər. İstər şəhərdə, istərsə də rayonlarda uşaqdan böyüyə lotoreyaya həvəs göstərirlər. Hətta oyunun aludəçisinə çevriliblər, desək, daha doğru olar.

Elə ailələr var ki, evindəki son qəpiyini də uduşlu bilet almağa sərf edir. Şans üzünə gülsə, o son qəpiyinə qarşılıq ailəsinə qazanc aparacaq. Əks halda isə bəxtəbəxt oyun olduğunu nəzərə alsaq, əlində olanı da itirəcək. Təbii ki, belə olduğu halda ailədə də narazılıqlar baş qaldırır. Qadın kişinin evə pul gətirmək əvəzinə olanı da aparıb uduzmasına etirazlar edir. Belə olduğu halda münaqişələr ortaya çıxır.

(səh.2)

Apteklərdə monitorinq keçirilib

9 adda dərman müsadirə olunub

Bakı şəhəri üzrə 10, digər rayonlar üzrə 2 aptek olmaqla, 12 aptekdə planlı və plandankənar yoxlamalar həyata keçirilib.

Bu barədə Analitik Ekspertiza Mərkəzindən məlumat verilib.

Qeyd edilib ki, müsadirə edilən qeydiyyatsız və sertifikatsız dərman vasitələrinin sayı 9 adda 26 qutu təşkil edib. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 215.4, 221.1, 451, 452.1, 452.3 maddələri üzrə 7 protokol tərtib edilib.

Fərrux kəndində daha bir neçə meyitin qalıqları tapılıb

Qalıqlar Birinci Qarabağ müharibəsində şəhid olmuş azərbaycanlılara aiddir

Xocalı rayonunun Fərrux kəndi ətrafında daha bir neçə azərbaycanlının meyitlərinin qalıqları tapılıb.

Qalıqlar Birinci Qarabağ müharibəsində Fərrux kəndi və yüksəkliyi uğrunda gedən ağır döyüşlərdə şəhid olmuş azərbaycanlılara aiddir.

Davam edən qazıntılar zamanı birinci Qarabağ müharibəsi zamanı qətlə yetirilmiş daha bir neçə azərbaycanlının qalıqları tapılıb.

Qeyd edək ki, daha əvvəl də ayrı-ayrılıqda 3 yerdə aparılmış qazıntılar zamanı Birinci Qarabağ müharibəsi zamanı qətlə yetirilmiş daha bir neçə azərbaycanlının qalıqları tapılıb. Hazırda faktlarla bağlı araşdırmalar davam etdirilir.

"Qiymət artımı və inflyasiya riskləri ilə üz-üzəyik"

Rəşad Həsənov: "Hökumət ehtiyatları artırmaq məqsədilə sahibkarlara faizsiz pullar verməlidir"

(səh.4)

Putin müharibəni 9 maya qədər uzadacaq

Moskvanın məqsədi Donbasda tutduğu əraziləri genişləndirməklə Krıma quru yolunu açmaq və əlavə torpaqlar ələ keçirməkdir

(səh.5)

Son sutkada cəmi 6 nəfər koronavirusa yoluxub

1 nəfər vəfat edib, 17 nəfər müalicə olunaraq sağalıb

Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına 6 yeni yoluxma faktı qeydə alınıb, 17 nəfər müalicə olunaraq sağalıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 1 nəfər vəfat edib. Azərbaycanda indiyədək ümumilikdə 792 067 nəfər koronavirus infeksiyasına yoluxub. Onlardan 782 040 nəfər müalicə olunaraq sağalıb, 9 698 nəfər vəfat edib, aktiv xəstə sayı 329 nəfərdir.

Ölkədə son sutka ərzində 2 106, hazırkı dövrədək isə 6 716 463 test aparılıb.

Prezident İlham Əliyev Avropa Şurasının Baş katibini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dünən Avropa Şurasının Baş katibi xanım Mariya Peyçinoviç Buriçin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Prezident İlham Əliyev Avropa Şurasının Baş katibi statusunda Mariya Peyçinoviç Buriçi Azərbaycanda görməkdən məmnun olduğunu bildirib və 2019-cu ilin aprellində Xorvatiyanın baş nazirinin müavini, xarici və Avropa işləri üzrə nazir qismində ölkəmizə səfərini və səfər çərçivəsində görüşlərini qeyd edib.

Dövlət başçısı özünün Azərbaycan nümayəndə heyətinin rəhbəri kimi vaxtilə AŞPA-dakı fəaliyyətini xatırladıb. Prezident İlham Əliyev Azərbaycanın Avropa Şurası ilə əməkdaşlığının konstruktiv dialoq əsasında inkişaf etməsinin vacibliyi bildirərək, Avropa Şurasına üzvlük çərçivəsində ölkəmizin qanunvericilik bazasının müasirləşdirilməsi istiqamətində ardıcıl addımların atıldığını diqqətə çatdırıb.

Ölkəmizə səfər etməkdən məmnunluğunu bildirən Mariya Peyçinoviç Buriç Azərbaycanın Avropa Şurasında üzvlüyünün yüksək dəyərləndirildiyini deyib və üzvlük prosesi çərçivəsində ölkəmizin Avropa Şurasının çox sayda konvensiya və müvafiq sənədlərinə qoşulduğunu və bu əsnada işin aparıldığını bildirib.

Söhbət zamanı Azərbaycanla Avropa Şurası arasında 2022-2025-ci illəri əhatə edən Fəaliyyət Proqramının qəbul olunacağı məmnunluqla qeyd edilib və bu Proqramda bir sıra sahələrdə əməkdaşlığın nəzərdə tutulduğu vurğulanıb.

Prezident İlham Əliyev regionda yaranmış yeni vəziyyət, Azərbaycanın Ermənistanla münasibətləri normallaşdırılması üçün irəli sürdüyü təkliflər, həmçinin işğaldan azad olunmuş ərazilərdə mövcud vəziyyət barədə Avropa Şurasının Baş katibinə məlumat verib.

Dövlət başçısı birinci Ermənistan-Azərbaycan müharibəsindən etibarən 3890 nəfər azərbaycanlının itkin düşdüyünü qeyd edib və onların taleyinin müəyyənləşdirilməsi üçün Ermənistan tərəfindən kütləvi məzarlıqların yerləri haqqında məlumatın verilməsinin vacibliyini vurğulayıb. İşğaldan azad olunmuş ərazilərdə Azərbaycanın mina problemindən ciddi şəkildə əziyyət çəkdiyini, 2020-ci il 10 noyabr Bəyanatından bəri 200-dən çox insanın minaların partlaması nəticəsində həlak olduğunu və ya yaralandığını diqqətə çatdırıb. Prezident İlham Əliyev bildirib ki, 44 günlük Vətən müharibəsi dövründə Azərbaycan beynəlxalq humanitar hüququn təməl prinsiplərinə ciddi şəkildə riayət edib. Ancaq buna baxmayaraq, müharibə dövründə Ermənistan tərəfindən çox sayda hərbi cinayətlərin törədildiyini bildirən dövlətimizin başçısı hərbi əməliyyatlar zamanı Ermənistanın şəhərlərimizi raketlərlə atəşə tutması, nəticədə aralarında uşaq və qadınlar da olmaqla 100-dən çox mülki şəxsin həlak olması faktını vurğulayıb.

Prezident İlham Əliyev Avropa Şurasının da iki ölkə arasında etimad quruculuğu prosesinə və inteqrasiya olunmuş Cənubi Qafqaz regionunun qurulması işinə töhfə verə biləcək bir platforma rolunu oynaya biləcəyini qeyd edib.

Avropa Şurasının Baş katibi Azərbaycanın bu sahədə nümayiş etdirdiyi yüksək siyasi iradənin təqdir olunduğunu bildirib.

Mariya Peyçinoviç Buriç Avropa Şurasının Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşması və iki ölkənin cəmiyyətləri arasında etimadın qurulması prosesində platforma rolunu oynamağa hazır olduğunu qeyd edib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

Prezident İlham Əliyev İtkin düşmüş şəxslər üzrə Beynəlxalq Komissiyanın baş direktoru xanım Katrin Bombergeri qəbul edib.

Dövlət başçısı bu yaxınlarda Xocavəndin Edilli kəndində kütləvi məzarlığın müəyyən olunduğunu, qazıntı işləri apararaq orada basdırılmış şəxslərin qalıqlarının aşkara çıxarıldığını və bu qalıqların DNT analiz təyinatlı laborator müayinələrə təqdim edildiyini diqqətə çatdırıb.

Prezident İlham Əliyev itkin düşmüş şəxslər məsələsinin daim dövlətimizin gündəliyində olduğunu, bunun Avropa İttifaqı və digər beynəlxalq təsisatlarla da müzakirə edildiyini vurğulayıb.

Azərbaycanın bu sahədə texniki imkanlarını genişləndirdiyini qeyd edən dövlət başçısı ölkəmizdə yeni modul laboratoriyaların qurulduğunu, xüsusi dron uçuş aparatlarının və digər ləvazimatların alındığını, cəlb olunmuş mütəxəssislərin peşə qabiliyyətlərinin artırıldığını diqqətə çatdırıb. İtkin düşmüş şəxslər üzrə Beynəlxalq Komissiyanın təcrübəsinin və imkanlarının ölkəmiz üçün çox vacib olduğunu qeyd edib, bu komissiyanın dünyanın müxtəlif ölkələrində uğurlu fəaliyyət göstərdiyini diqqətə çatdırıb.

"Edillidə kütləvi məzarlıq müəyyən olunub"

Prezident: "Qalıqlar laborator müayinələrə təqdim edilib"

Azərbaycanda qazdan istifadə qaydalarında dəyişikliklər edilib

Azərbaycanda "Qazdan istifadə Qaydaları"nda dəyişikliklər edilib.

Bu barədə Baş Nazir Əli Əsədov qərar imzalayıb.

Yeni qərara görə, qaz qurğularına texniki baxış üçün tələb olunan sənədlərin siyahısı genişləndirilib. Belə ki, Enerji Məsələlərini Tənzimləmə Agentliyi tərəfindən sənaye qaz qurğusunun istismarına icazə vermək üçün həmin qurğulara texniki baxış istehlakçıların təqdim etdiyi sənədlərlə yanaşı ərizə də təqdim edilməlidir.

Bundan əlavə, həmin qaydalar edilən əlavəyə görə, Enerji Məsələləri Tənzimlənmə Agentliyinə sənədlər barədə məlumat əldə etmək üçün dövlət orqanlarının və digər qurumların elektron informasiya ehtiyatlarından istifadə etmək səlahiyyəti verilib.

Bu mümkün olmadığı halda, həmin sənədlərin təqdim edilməsi ərizəçidən tələb olunur.

Avropa tədricən Rusiya qazından imtina edir

Söhbət Rusiyanın illik 70 milyard dollara yaxın valyutanı itirməsindən gedir

Bəzi Avropa ölkələri Rusiya qazından imtina etməyə başlayıb. İlk addımı Litva atıb və aprelin əvvəlindən Rusiyadan təbii qaz idxalını tamamilə dayandırıb. Litva Prezidenti Gitanas Nauseda deyib ki, Vilnüs bacardı, Avropanın qalan hissəsi də bunu edə bilər.

Ölkənin energetika naziri Dainius Kreivys də Rusiyadan qaz idxalının dayandırılmasını "enerji tarixində dönüş nöqtəsi" kimi qiymətləndirib. Rusiya qazından imtina edən ilk Avropa ölkəsi olduqlarını bildirən Kreivys bunun illərdir həyata keçirilən ardıcıl enerji siyasətinin və vaxtında verilən infrastruktur qərarlarının nəticəsi olduğunu bildirib. Ölkənin qaza olan tələbatının hamısının mayeləşdirilmiş təbii qaz (LNG) hesabına ödənildiyi bildirilib. Qarşıdakı aylarda idxal olunacaq təbii qazın miqdarı və qazın hansı marşrutlarla gətiriləcəyi ilə bağlı planların hazırlandığı qeyd edilib. Bildirilib ki, ehtiyac yaranarsa, mayın 1-dən etibarən Latviya Polşa üzərindən təbii qaz idxal oluna bilər. Avropa Birliyi Şurasının baş diplomatı Jozep Borrell də deyib ki, qitə ölkələri iki il ərzində Rusiya qazından imtina edə bilər. O bildirib ki, AB müxtəlif mənbələrdən qaz almağı planlaşdırır.

Millət vəkili, iqtisadçı Vüqar Bayramov deyib ki, Avropa İttifaqının Rusiya qazından imtina məsələsi müzakirə mövzularındandır. Deputat diqqətə çatdırıb ki, hazırda Rusiya Avropanın qaz idxalının 45, ümumi istehlakının isə 40 faizini formalaşdırır: "Avropa İttifaqı bu məsələdə daha radikal addımlar ata bilər. Mərkəz və Şərqi Avropa ölkələri qaz ehtiyatları baxımdan daha riskli zona hesab olunur. Məsələn, Çex Respublikasının cəmi 34 günlük qaz ehtiyatları var. Doğrudur, havaların istiləşməsi Avropaya manevr imkanları verir. Bununla belə, azalan və ya imtina edilən idxalı qısa zamanda başqa mənbələr hesabına kompensasiya etmək çox çətindir. Digər tərəfdən, Rusiya üçün də enerji məhsullarının, o cümlədən qazın ixracatı əsas gəlir mənbələrindən biridir. 2021-ci ildə Rusiyanın neft ixracatından gündəlik gəliri 350 milyon dollar olub. Qaz Rusiyaya gündəlik 200 milyon dollar valyuta gətirib. Deməli, söhbət illik 70 milyard dollara yaxın valyutanın itirilməsindən gedir. Görünən budur ki, tərəflər ən kəskin gedişlərdən belə çəkinmirlər. Tunelin sonunda isə hələ də "işıq" görsənmir".

İsmayıl

Gecə klubunda partlayışa görə 3 nəfər həbs edilib

Hadisə nəticəsində 1 nəfər ölüb, 37 nəfər xəsarət alıb, 14 avtomobil, 1 mənzil və 2 qeyri yaşayış obyektinə ziyan dəyib

(Əvvəli səh.1)

Baş Prokurorluqdan "Şərq"ə verilən məlumata görə, toplanmış ilkin sübutlarla müəyyən edilmişdir ki, qeyd olunan obyektin mətbəxində qanunsuz olaraq, eləcə də mövcud qaydaların tələbləri pozulmaqla propan qazının sıxılmış mayesi ilə dolu olan qaz balonundan istifadə edilmiş, həmin qaz balonunun partlaması binada dağıntılara və yanğına səbəb olmuşdur.

İstintaq zamanı yanğın təhlükəsizlik qaydalarının riayət edilməsinə məsul olan iaşə obyektini icarəyə götürmüş "Merser food" MMC-də administrator işləyən Rəsul Rəsulova Cinayət Məcəlləsinin 225.2-ci (yanğın təhlükəsizliyi qaydalarını pozma - ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda), həmin MMC-nin təsisçisi-klubun meneceri Orxan Səfərova Cinayət Məcəlləsinin 314.2-ci (səhlənkarlıq-ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda) maddəsi ilə ittiham elan edilmişdir.

Eyni zamanda istintaq zamanı, qeyd olunan ərazi üzrə yanğın təhlükəsizliyinin təmin edilməsinə məsul olan - Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğın Nəzarəti Xidmətinin 2-ci Ərazi Dövlət Yanğın Ərazi idarəsinin inspektoru Ruslan Məmmədov tərəfindən vəzifələrin icrası zamanı səhlənkarlığa yol verilməsi müəyyən edildiyindən, sonuncu Cinayət Məcəlləsinin 314.2-ci maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb olunmuşdur.

Hər üç şəxs barəsində Binəqədi rayon məhkəməsinin müvafiq qərarları ilə həbs qətimkan tədbiri seçilmişdir.

Hazırda cinayət işi üzrə istintaq davam etdirilir.

İstintaqın gedişatı və nəticələri barədə ictimaiyyətə mütəmadi olaraq məlumatın verilməsi təmin ediləcəkdir.

İsmayıl Qocayev

Azərbaycan Prezidenti İlham Əliyev Rusiya rəhbəri Vladimir Putin Azərbaycan-Rusiya arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi münasibətilə bir-birinə təbrik məktubu göndəriblər.

Dövlət başçısı İlham Əliyev rusiyalı həmkarına göndərdiyi məktubda vurğulayıb ki, çoxəsrlik dostluq və mehriban qonşuluq

30 ildə qazancımız çox oldu

Azərbaycan Rusiya münasibətləri dinamik inkişaf edib

ənənələrinə əsaslanan Azərbaycan-Rusiya münasibətləri qarşılıqlı hörmət və etimad, strateji tərəfdaşlıq və qarşılıqlı faydalı əməkdaşlıq ruhunda uğurla inkişaf edib. Ölkə rəhbəri vurğulayıb ki, fəal siyasi dialoq, ticari-iqtisadi, nəqliyyat, energetika, humanitar və digər sahələrdə səmərəli əməkdaşlıqla səciyyəvi olan dövlətlərarası əlaqələr böyük məmnunluq doğurur: "Qarşılıqlı ticarətin və investisiyaların davamlı artımı, müxtəlif sahələrdə birgə layihələrin və təşəbbüslərin səmərəli reallaşdırılması ikitərəfli münasibətlərin dinamik inkişafına parlaq sübutdur. Xüsusilə sevindirici haldır ki, diplomatik münasibətlərin qurulmasının budəfəki yubiley ili Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamənin imzalanması ilə eyni vaxta düşüb. Bu mühüm sənəddə 30 illik dövrdə dövlətlərimiz arasında münasibətlərin keyfiyyətcə yeni, ən yüksək səviyyəyə çatması təsbit olunub. Şübhəsiz, ali və yüksək səviyyədə müntəzəm əlaqələr, qarşılıqlı səfərlər və görüşlər də Azərbaycan ilə Rusiya arasında əlaqələrin inkişaf dinamikasına və birgə fəaliyyətin dərinləşməsinə müsbət təsir göstərir". Məktubda qeyd olunub ki, mədəniyyət və təhsil sahələrində əməkdaşlıq, Azərbaycanda rus dilinin və rus mədəniyyətinin dövlət səviyyəsində hərtərəfli dəstəklənməsi əlaqələrə verilən əhəmiyyəti əyani şəkildə təsdiq edir: "Əminəm ki, biz birgə səylərimizlə bundan sonra da ikitərəfli əməkdaşlığın aktual məsələlərini reallaşdıra, Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında münasibətlərin xalqlarımızın və ölkələrimizin mənafeyi naminə möhkəmlənməsi üçün yeni imkanlar açа biləcəyik". Rusiya Prezidenti V.Putin də təbrik məktubunda qeyd edib ki, dostluq və qarşılıqlı hörmət ənənələrinə əsaslanan Rusiya-Azərbaycan əlaqələrinin inkişafı üçün ötən onilliklər ərzində bir çox işlərin reallaşmasına nail olunub: "Ticari-iqtisadi, elmi-texniki, humanitar və digər sahələrdə konstruktiv siyasi dialoq, səmərəli əməkdaşlıq genişlənir. Keçən il və inişil bağlanmış üçtərəfli müqavilələrə əsasən, Cənubi Qafqaz regionunda sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsi üzərində birlikdə işləyirik. Bu il mühüm nailiyyətlə - Rusiya və Azərbaycan arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamənin imzalanması ilə əlamətdardır. Əminəm ki, ikitərəfli münasibətlərin yeni, keyfiyyətcə daha yüksək səviyyəyə çatdırılması xalqlarımızın təməl maraqlarına uyğun gəlir".

> Bu münasibətlərin xarakteri Cənubi Qafqazda təhlükəsizliyə birbaşa töhfəsini verib

Azərbaycan-Rusiya əlaqələri barədə "Şərq"ə danışan millət vəkili, parlamentin Azərbaycan-Rusiya dostluq qrupunun üzvü Elşad Mirbəşiroğlu deyib ki, iki ölkənin münasibətləri 30 il ərzində dinamik şəkildə inkişaf edib. Deputatın sözlərinə görə, xüsusilə Vladimir Putinin hakimiyyətə gəlişindən sonra Moskva-Bakı münasibətlərində yeni mərhələ başlayıb: "Qısa zaman kəsiyində ikili münasibətlər strateji tərəfdaşlıq xarakteri alıb və bu il fevral ayının 22-də iki dövlət arasında müttəfiqlik haqqında saziş imzalanıb. Rusiya Azərbaycanın ikinci ən böyük ticarət tərəfdaşıdır. Bu, çox vacib amildir. Ən müxtəlif sahələrdə əlaqələr dinamik inkişaf etməkdədir. Bundan başqa Azərbaycan və Rusiyanın birbaşa təşkilatçılığı və iştirakı ilə Şimal-Cənub nəqliyyat dəhlizi layihəsi reallaşdırılıb. Bu da iqtisadi əlaqələr və regional təhlükəsizlik baxımından olduqca vacibdir. Rusiya-Azərbaycan münasibətlərinin xarakteri Cənubi Qafqazda təhlükəsizliyə birbaşa təsir edir. Azərbaycan Ermənistan istisna olmaqla bütün qonşu ölkələrlə konstruktiv münasibətlər qurur. Ölkə başçısı cənab İlham Əliyevin uzaqgörən, strateji baxışları sayəsində məhz belə bir mənzərə mövcuddur. Qonşu ölkələr də aydın nümayiş etdirirlər ki, onlar Cənubi Qafqazda Azərbaycanın aparıcı rolunu qəbul edirlər. Azərbaycan bütün mənalarda regionun lokomotiv ölkəsidir. O səbəbdən Rusiya da ölkəmizlə əməkdaşlığa hər zaman üstünlük verir".

Milli Məclisin üzvü vurğulayıb ki, 44 günlük Vətən müharibəsi dövründə ATƏT-in Minsk qrupunun həmsədr ölkələri arasında ilk dəfə olaraq məhz Rusiya rəhbəri V.Putin Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən açıqlama verib: "Putin İrəvanın KTMT-nin proseslərə qoşulması ilə bağlı çağırışlarına cavab olaraq bildirdi ki, döyüş əməliyyatları Ermənistan ərazisində getmir. Ona görə də qurum hərbi əməliyyatlara müdaxilə edə bilməz. 10 noyabr birgə bəyanatının imzalanması və şərtlərə əməl olunmasının vacibliyi də rəsmi Bakı ilə yanaşı, Moskva tərəfindən də vurğulanıb. Bundan sonrakı mərhələdə də Azərbaycan-Rusiya arasındakı siyasi-iqtisadi münasibətlər davamlı olaraq inkişaf etdirilməlidir. Qonşu ölkələrlə normal əməkdaşlıq zəruridir. Azərbaycanın atdığı addımlar milli maraqlarımıza tam cavab verir və ölkəmizin mövqelərini daha da möhkəmləndirir".

Zelenskinin müharibəni dayandırmağa gücü yetmir

Ukrayna yaxın və orta perspektivdə geosiyasi qarşıdurmanın mərkəzi olaraq qalacaq

İsmayıl Qocayev

”Bizim uşaqlarımız uçan ulduzları yox, uçan raketləri çəkir. Musiqiçilərimiz smokinq əvəzinə zirehli gödəkçə geyinir”. Bu sözləri Ukrayna Prezidenti Vladimir Zelenski ”Qremmi” mükafatlandırma mərasimində videomüraciətlə çıxış edərkən deyib. Zelenski bildirib ki, Qərb ölkələri müharibə haqqında həqiqəti söyləməlidir:

”Bizi hər cür dəstəkləyin, amma susmaqla deyil. Sülh o zaman gələcək”. Prezident vurğulayıb ki, NATO ölkələri Kiyevi hərbi təyyarələrlə təmin etməyəcək: ”Qırıcı və ya bombardmançı təyyarələrə gəlincə, istənilən təyyarə bizə çox kömək edə bilərdi. Onlar insanların həyatını xilas edərdi və Rusiyanın səmada üstünlüyü olmazdı. Təəssüf ki, biz bunu əldə edə bilmirik”. Zelenski Kiyevə əlavə Sovet və ya Rusiya istehsalı silahların veriləcəyinə ümid etdiyini bildirib: ”Mən bu tip silahların bizə verilməsində problem görmürəm. ABŞ və digər ölkələr tərəfindən istehsal edilən daha böyük sistemlərə gəlincə, biz, şübhəsiz ki, bu cür dəstəyi səbirsizliklə gözləyirik, lakin təəssüf ki, onlarla bağlı vəziyyət daha mürəkkəbdir”.

“ABŞ təhlükəsizlik zəmanəti vermir”

Zelenski təəssüflə bildirib ki, ABŞ Kiyevin istədiyi formada təhlükəsizlik zəmanəti verməyə razı deyil: ”Mən Birləşmiş Ştatlara və ABŞ Prezident Administrasiyasına ikitərəfli dəstəyə, bizim

Bu inam bu gün də davam edir. Ukrayna xalqı da həmin azadlıq uğrunda mübarizə aparır”.

“Polşa, Latviya, Litva, Estoniya sərhədlərini Rusiya və Belarusa bağlayır”

Ukrayna infrastruktur nazirinin müavini Mustafa Naim bildirib ki, Polşa, Latviya, Litva və Estoniya yaxın 48-72 saat ərzində Rusiya və Belarusa məxsus yük maşınları üçün quru yolları tamamilə bağlayacaq. Bununla da Rusiyanın tam təcridi həyata keçəcək: ”Ötən həftə biz rəsmi şəkildə Rusiya və Belarusun istənilən avtomobil yollarının bağlanması ilə bağlı müraciət etmişdik. Müraciətimizə dərhal reaksiya verilib. Yekun nəticəni gözləyirik”. Qeyd edək ki, Ukraynadakı müharibədən sonra Avropa İttifaqı hava

üçün etdikləri hər şeyə görə təşəkkür etmək istərdim. Lakin buna baxmayaraq, Birləşmiş Ştatlar bizə təhlükəsizlik zəmanəti vermədi. Bunu başa düşmək lazımdır. Hələ ki, biz bu zəmanəti heç kimdən almamışıq”.

“Dialoqdan başqa yol yoxdur...”

Ukrayna Prezidenti Putinlə görüşün əsas şərtini açıqlayıb. O deyib ki, bunun üçün ilk növbədə tam atəşkəsə nail olmaq lazımdır: ”Görülənlərdən sonra Rusiya ilə hansısa danışıqları necə apara biləcəyimizi söyləmək çətindir. Bu, şəxsi səviyyədədir. Amma bir Prezident kimi mən bunu etməliyəm”. Ukrayna Prezidentinin sözlərinə görə, bu gün yüz minlərlə insanın ölümünün qarşısını almaq üçün müharibəni dayandırmaq üçün dialoqdan başqa yol yoxdur: ”Yüz minlərlə, milyonlarla insanın ölməsini istəmiriksə, dialoqdan başqa yol yoxdur, amma atəşlər davam edərkən bir araya belə gələ bilmirəm. Ona görə də əvvəlcə atəş dayandırılmalıdır. Onda görüş keçirə bilərik”. Qeyd edək ki, Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov, görüşün baş tutması üçün iki nümayəndə heyəti tərəfindən ideyalar toplusu deyil, konkret yazılı sənədin hazırlanmalı olduğunu bildirib.

“Putinin məğlub olması üçün əlimizdən gələni edəcəyik”

Böyük Britaniyanın Baş naziri Boris Conson bildirib ki, London Putinin uğursuzluğa düçar olması üçün əlindən gələni edəcək: ”NATO üzvləri 73 il əvvəl azadlıq və suverenlik uğrunda birləşdilər. məkanını Rusiya təyyarələri üçün bağlayıb. Bununla belə, Rusiya daşınmalar quru yolu ilə gerçəkləşdirilir.

Kreml Putin və Zelenskinin görüşünün şərtini açıqlayıb

Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov bildirib ki, Rusiya Prezidenti Vladimir Putin heç vaxt Ukrayna prezidenti ilə görüşdən imtina etməyib. Ancaq konkret yazılı sənəd hazırlandıqdan sonra növbə ona çatacaq: ”Putin heç vaxt belə görüşdən imtina etməyib və belə bir görüş, bəli, hipotetik olaraq mümkündür, lakin bunun baş tutması üçün iki nümayəndə heyətinin işinin dərinliklərində konkret sənədin yetişməsi lazımdır. İdeyalar toplusu deyil, konkret yazılı sənəd. Sonra belə bir görüşün növbəsi gələcək”. Jurnalistin ”Minsk razılaşmaları üzrə 7 illik təcrübənin olduğunu nəzərə alaraq, bu sənədin həyata keçiriləcəyinə inam varmı” sualına cavabında Peskov belə deyib: ”Bizim bu təcrübəmiz var, onu xatırlayırıq, çox yaxşı xatırlayırıq və buna uyğun hərəkət edirik. Əminəm ki, hərbi əməliyyatımızın məqsədləri tam şəkildə həyata keçiriləcək. Ümid edirəm ki, Rusiya-Ukrayna danışıqları baxımından aparılan gərgin səylər nəticəsində biz də müəyyən sənədin imzalanmasına gələcəyik və bu, vəziyyətin normallaşması istiqamətində mühüm addım olacaq”.

“Avropa İttifaqı Rusiyaya qarşı növbəti sanksiyalar üzərində işləyəcək”

Avropa İttifaqının (Aİ) Xarici siyasət və təhlükəsizlik məsələləri üzrə Ali Nümayəndəsi Cozep Borrell bəyanatında bildirib ki, Aİ Rusiyaya qarşı növbəti sanksiyalar üzərində işləyəcək: ”Avropa İttifaqı Rusiya silahlı qüvvələrinin işğaldan azad edilmiş Ukraynanın bir sıra şəhərlərində daha əvvəl törətdiyi vəhşəti ən sərt şəkildə pisləyir. Çox sayda mülki əhalinin ölümü, həmçinin mülki infrastrukturun dağıdılması ilə bağlı dəhşətli görüntüləri Rusiyanın Ukraynaya və onun xalqına qarşı apardığı amansız işğalçılıq müharibəsinin əsl simasını göstərir. Buça şəhərində və Ukraynanın digər şəhərlərində törədilən qətliamlar Avropa torpaqlarında törədilən vəhşiliklər siyahısına salınacaq”. Aİ-nin Ali Nümayəndəsi vurğulayıb ki, baş verənlərə görə Rusiya hakimiyyət orqanları məsuliyyət daşıyır: ”Müharibə cinayətlərinin və digər ciddi pozuntuların təqsirkarları, habelə məsul dövlət rəsmiləri və hərbi rəhbərlər məsuliyyətə cəlb olunacaqlar.

Avropa İttifaqı Rusiya Silahlı Qüvvələri tərəfindən Ukraynada insan hüquqlarının pozulmasına və beynəlxalq humanitar hüququn pozulmasına görə məsuliyyəti təmin etmək üçün bütün tədbirləri dəstəkləyir”.

AP Ukraynaya 3 məsələ ilə bağlı vəd verdi

Avropa Parlamentinin (AP) sədri Roberta Metsola Kiyevdə Ukrayna Prezidenti Vladimir Zelenski ilə görüşüb. Metsola 3 məsələnin təminatı ilə bağlı Ukrayna liderinə söz verib. O, Rusiyaya sanksiyaların davam edəcəyini, AB-yə üzvlük üçün müraciət edən Ukraynanı bu prosesdə dəstəkləyəcəklərini və ukraynalılara evlərinə qayıdana qədər yardımların ediləcəyini bildirib.

“Rusiyanın şuradakı iştirakı ”komediya”dır”

ABŞ Rusiyanın BMT-nin İnsan Haqları Şurasından kənarlaşdırılması ilə bağlı məsələ qaldıracaq. Bu barədə Amerikanın təşkilatdakı səfiri Linda Tomas-Grinfild deyib. O, Rusiyanın şuradakı iştirakının ”komediya” olduğunu bildirib: ”Rusiyanın İnsan Haqları Şurasında iştirakı komediyadır. Bu, şuranın və BMT-nin etibarına böyük zərbə vurur. Bu yanlışdır və ona görə də biz inanırıq ki, BMT Baş Assambleyasında onun kənarlaşdırılması üçün səsvermənin vaxtıdır. Ukrayna, Avropa ölkələri və BMT-dəki digər tərəfdaşlarımızla birlikdə biz Rusiyanın BMT İnsan Haqları Şurasından kənarlaşdırılmasına çalışacağıq”.

Ukraynada geosiyasi hesablaşma: dünya yenidən bölünür

Ukraynanın işğalı məqsədilə hücuma keçəndən təxminən iki həftə sonra Rusiya Ukraynada gözləmədikləri mənzərə ilə qarşılaşdı. Siyasi planlarda ciddi korrektlər olmasa da, hərbi plan baş tutmamış kimi görünür. Bu, Qərb cəbhəsindən daha çox, Böyük Britaniyanın müharibənin gedişinə təsir edən dəstəyinin nəticəsidir. Burada uzlaşan maraqlar olmaqla yanaşı, hər kəsin öz oyununun olduğu da gerçəkdir. Böyük Britaniya Rusiya təhlükəsi üzərindən NATO-nu birləşdirmək, Fransa və Almaniyanı cəzalandırmaqda maraqlı olsa da, Çinin Orta dəhlizdə yolunun kəsilməsində maraqlı deyil. Türkiyənin NATO ölkəsi olmasına baxmayaraq, Rusiya əleyhinə sanksiyalara qoşulmaması, Rusiya-Ukrayna danışıqlarında aparıcı qüvvə olması həm də buradan qaynaqlanır. Müharibədən öncə Rusiya ilə genişçaplı müqavilələr imzalayan Pekin II Dünya müharibəsindəki ABŞ-ı xatırladır. Nəticənin nə olacağını görmək istəyir və mümkündür ki, siyasətini buna uyğun quracaq, müharibənin ilk günlərində fərqli, sonrakı günlərində fərqli mövqelər sərgiləməsi də bunu deməyə əsas verir. Rusiyanın ”qan itkisi” Çinin, xüsusilə Mərkəzi Asiyada yolunu aça bilər. Ukraynanın taleyinin Finlandiyanın taleyi ilə oxşar olacağı ehtimalı böyükdür. Yəni torpaq itkisi hesabına olsa belə, Rusiyadan xilas olur, daha xoşbəxt və rifah ölkəsinə çevrilir. Hərçənd, Ukrayna yaxın və orta perspektivdə ”soyuq müharibə”ni xatırladan geosiyasi qarşıdurmanın mərkəzi olaraq qalacaq. Çünki hər kəs istəyinə hələ tam nail olmayıb”.

Brüssel Paşinyanın bəlkə də son şansıdır

Avropa İttifaqı Şurasının səbri bir yerə qədərdir

“Qərb strukturları Ermənistanı Rusiyanın təsir dairəsindən çıxartmaq istəyirlər. Əgər İrəvan bu şansdan yararlanarsa, Moskvadan xilası mümkündür”

Prezident İlham Əliyev aprelin 6-da Brüsseldə Ermənistanın Baş naziri Nikol Paşinyanla görüşəcək. Avropa İttifaqı Şurasının rəhbəri Şarl Mişelin vasitəçiliyi ilə keçirilməsi planlaşdırılan görüşdə iki ölkə arasında yekun sülh müqaviləsinin bağlanması yönündə müzakirələrin aparılması nəzərdə tutulub.

Azərbaycan tərəfi Brüssel görüşü barədə məlumatın media gündəminə çıxmasından bir müddət öncə Ermənistanla sülh müqaviləsinin imzalanması ilə bağlı şərtlərini açıqlayıb. 5 maddəlik təkliflərdən ibarət olan bu şərtlər qəbul edilərsə, Azərbaycanla yanaşı, bütün regiona, o cümlədən, Ermənistanın özünə ciddi dividendlər qazandırmış olacaq. Ermənistan üzdə həmin təklifləri qəbul etdiyini və sülh müqaviləsinə hazır olduğunu göstərir. Lakin arxada ikili oyununu davam etdirir, sülh danışıqları üçün qəbuledilməz təklif və şərtlərlə çıxış edir. Məsələn, İrəvan hökuməti ATƏT-in Minsk qrupunun prosesə qayıtması, vasitəçilik etməsinə razılıq verilməsinə çalışır. Ermənistan yaxşı bilir ki, bu təklif Azərbaycan üçün qəbuledilməzdir.

Siyasi elmlər doktoru, professor Cümşüd Nuriyev ”Şərq”ə açıqlamasında bildirib ki, Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel Azərbaycan və Ermənistan rəhbərliyini ikinci dəfə bir araya gətirməyə təşəbbüs edir. Ekspert diqqətə çatdırıb ki, rəsmi Bakı birinci görüşdən də müəyyən pozitiv addımlar gözləyirdi. Amma məsələ ondadır ki, Ermənistan rəhbərliyinin hələ də vahid mövqeyi, konkret yanaşması yoxdur: ”Baş nazir Nikol Paşinyan səhər bir söz deyir, axşam tamam fərqli tərzdə danışır. Görüşlə bağlı məlumatdan öncə Paşinyan və hökumət üzvləri sülhdən danışırdılar. Elə ki, Brüssel görüşü ilə bağlı xəbər yayıldı və konkret gün açıqlandı, dərhal mövqelərini dəyişdilər. Növbəti dəfə sərsəm bəyanatlar səsləndirdilər. Azərbaycan tərəfi dəfələrlə bəyan edib ki, rəsmi Bakı sülh sazişi imzalamağa, bununla bağlı müzakirələrə başlamağa hazırdır. Dövlət başçısı da bunu təkrar vurğuladı və sülhdən, əməkdaşlıqdan başqa yol olmadığını diqqətə çatdırdı. Azərbaycan beynəlxalq hüquq normalarına uyğun olaraq iki tərəf üçün münasib sayılan 5 baza prinsipini irəli sürüb. Ancaq İrəvan hələ də susqunluq nümayiş etdirir”.

Professorun fikrincə, Rusiyanın başı Ukraynaya qarışsa da, Moskvadakı bəlli dairələr Paşinyanı Kremlin nəzarətindən çıxmağa qoymur: ”Rusiya İrəvan vasitəsi ilə ATƏT-i ”diriltməyə” çalışır. Paşinyan isə Kremldən kənar ciddi addım atmağa risk etmir. O səbəbdən ikinci Brüssel görüşündən müsbət nəticələr gözləmirəm. Ən ciddi nəticə yekun sülh sazişinin bağlanması üçün işçi qrupunun yaradılması və sərhədlərin müəyyənləşməsinin müzakirəsi ola bilər. Ancaq Paşinyan dərk etməlidir ki, Avropa İttifaqı Şurasının səbri bir yerə qədərdir. Qərb strukturları Ermənistanı Rusiyanın təsir dairəsindən çıxartmaq istəyirlər. Əgər İrəvan bu şansdan yararlanarsa, Moskvadan xilası mümkündür. Hazırda Ermənistan daxilində Rusiyanın ”5-ci kolonu” çox güclüdür. Ona görə də Paşinyan gah Qərbin, gah da Rusiyanın xoşuna gələn açıqlamalar verir. Doğrudur, siyasət balansı sevir, amma bir-birinə zidd bəyanatlar, tez-tez dəyişən mövqelər və qorxaq idarəçilik siyasətdən uzaqdır. Məhz erməni baş nazirin dəyişkən yanaşması Brüssel görüşünə ümidləri azaldır”.

İsmayıl Qocayev

Əsirlikdə qətlə yetirilən hərbçinin məktubu üzə çıxıb

Qırmızı Xaç Komitəsinin Bakı ofisi isə susmağa üstünlük verir



Sosial şəbəkədə erməni əsirliyində olan şəxsin məktubu yayılıb. Quba rayonundan olan hərbi qulluqçu Novruzov Laçın Əhməd oğlunun 1994-cü ildə əsirlikdə olarkən Beynəlxalq Qırmızı Xaç Komitəsi (BQXK) vasitəsi ilə evlərinə göndərdiyi məktub üzə çıxıb.

Məktubda Laçın Novruzov həmin vaxt sağ olduğunu, Ermənistanın Edili kəndində saxlanıldığını yazıb və ailəsinə onu əsirlikdən qurtamaq üçün yalvarış dolu xahiş edib. Əsirlikdən qayıtmış bəzi şəxslər iddia ediblər ki, Laçın Novruzov bu məktubu yazdıqdan bir müddət sonra işgəncələrlə qətlə yetirilib. Harada basdırıldığı isə məlum deyil. Amma Laçın Novruzovun taleyi haqda heç bir rəsmi məlumat verilməyib.

Məsələ ilə bağlı Beynəlxalq Qırmızı Xaç Komitəsinin Bakı ofisinin ictimaiyyətlə əlaqələr departamentinin rəhbəri İlahə Hüseynova ”Şərq”ə açıqlama verib:

”BQXK fərdi işlər barədə ictimaiyyətə şərh vermir. Belə məsələlər konfidensial və ikitərəfli dialoq kimi qalır”.

Aygün

Bakıda qaz balonu kabusu dolaşır

Elmar Nurəliyev: “Zirzəmilərdə, ictimai iaşə müəssisələrində, mağaza, anbar və s. obyektlərdə flakon qaz balonlarından istifadə qanunvericiliklə qadağan olunub”

Aprelin 3-də Bakının Səbail rayonu, Tərlan Əliyarbəyov 13a ünvanında fəaliyyət göstərən gecə klubunda partlayış baş verib. Partlayış zamanı bir nəfər ölüb, bir neçə nəfərsə xəsarət alıb. Hadisə dağıntılara səbəb olub. Partlayış yanğınla nəticələnib. Olay yerinə hüquq-mühafizə orqanları, Fövqəladə Hallar Nazirliyinin əməkdaşları və təcili yardım cəlb edilib. ”Azəriqaz” İB-dən verilən məlumata görə, partlayış maye qaz balonunda yaranmış sızma nəticəsində yaranıb.

Məsələ flakon qaz balonlarından istifadə qaydalarını yenidən gündəmə gətirdi. Təhlükəsizlik məsələləri üzrə ekspert Elmar Nurəliyev bu barədə ”Şərq”ə danışıb:

”Zirzəmilərdə, ictimai iaşə müəssisələrində, mağaza, anbar və s. obyektlərdə flakon qaz balonlarından istifadə qanunvericiliklə qadağan olunub. Burda əsas məqsəd insanların həyat və sağlamlıqlarının qorunmasıdır. Bu cür qaz balonları düzgün şəkildə istifadə olunmadıqda güclü partlayışa səbəb olur. Təxminən 10-15 kvadratlıq bir otaqda flakon qaz balonundan qaz sızması olarsa, otaqda olan hava kütləsinin 2-3 faizi genişmiqyaslı partlayışa səbəb olur. Flakon qaz balonları istifadə edən şəxslər onu vaxtaşırı texniki baxışdan keçirməlidir. Elə qaz balonları var ki, illərlə texniki qulluq göstərilmədən istifadə olunur. Bu, yolverilməzdir”.

Ekspert diqqətə çatdırıb ki, hazırda Bakı şəhərində yerləşən çoxmənzilli yaşayış binalarının əksəriyyətinin birinci mərtəbəsi kafe, restoran, bar, çayxana kimi fəaliyyət göstərir və onların əksəriyyətində belə qaz balonlarından istifadə olunur:

”Bu halın davam etdiyi müddətdə həmin binalarda yaşayan sakinlərin həyatı daim təhlükə altında olacaq”.

E.Nurəliyevin qənaətincə, sahibkarları, belə yerlərdə obyekt işlədən şəxsləri bu barədə məlumatlandırmaq üçün vahid konsepsiyanın hazırlanması vacibdir:

”Beləcə sahibkarlar həmin konsepsiyadakı müddəalarla daha yaxından tanış olar, xidmət göstərməzdən öncə daha münasib yer seçərlər. Digər tərəfdən onlara təhlükəsiz şəkildə fəaliyyət göstərmələri üçün alternativlər təqdim etmək lazımdır”.

Günəş Mərd

Buçada qətliam...

Şəhərdə öldürülən mülki şəxslərin görüntüləri sarsıdıcıdır

Ukrayna hərbçiləri Kiyev vilayətinin ərazisini tamamilə Rusiya hərbçilərindən azad ediblər. İrpin, Buça, Qostomel və digər yaşayış məntəqələri nəzarətə götürülüb. Azad edilmiş ərazilərdə xeyli ukraynalı mülki şəxslərin meyitləri aşkarlanıb.

Ukrayna Prezidentinin aparat rəhbərinin müşaviri Mixail Podolyak bildirib ki, Buça, İrpen, Qostomeldə insanlığa qarşı tam təsvirolunmaz dəhşətli hadisələr baş verib. Yüzlərlə, minlərlə dinc Ukrayna vətəndaşı xüsusi vəhşiliklə öldürülüb. Prezident Vladimir Zelenski Almaniyanın keçmiş kansleri Angela Merkeli və Fransanın sabiq prezidenti Nikola Sarkozini Buçaya səfər etməyə və 14 ildə Rusiyaya güzəşt siyasətinin nələrə gətirib çıxardığını görməyə dəvət edib. O, bu barədə videomüraciətində deyib: "Avropada İkinci Dünya müharibəsindən bəri ən dəhşətli müharibədə həyat uğrunda mübarizə aparırıq. Mən xanım Merkel və cənab Sarkozini Buçaya səfər etməyə və 14 il ərzində Rusiyaya güzəşt siyasətinin nələrə gətirib çıxardığını görməyə dəvət edirəm. İşgəncələrə məruz qalan ukraynalıları və ukraynalı qadınları öz gözləri ilə görmək üçün". Fransa Prezidenti Emmanuel Makron Ukraynanın Rusiya hərbçilərindən azad edilmiş Buşa şəhərində mülki insanların öldürülməsini pisləyib. Makron deyib ki, Rusiya Buçadakı cinayətlərinə görə cavab verməli olacaq: "Kiyev yaxınlığında işğaldan azad edilmiş Buça şəhərindən bizə çatan görüntülər dözülməzdir. Küçələrdə yüzlərlə dinc sakin qorxaqcasına öldürülüb. Ölənlərə rəhmət diləyirəm, ukraynalılarla həmrəyliyimi bildirirəm. Rusiya hakimiyyəti bu cinayətlərə görə cavab verməli olacaq".

> "Rusiya özünü nə qədər təmizə çıxarmağa, əməllərini inkar etməyə çalışsa da, törətdiyi dəhşətli cinayətlərin məsuliyyətindən boyun qaçıra bilməyəcək"

BMT baş katibi Antoniu Quttereş də Buça şəhərində öldürülən mülki şəxslərin görüntülərindən sarsıldığını deyib. Polşa Prezidenti Andjey Duda bəyan edib ki, rus ordusunun Buçada ukraynalıları qətlə yetirməsi təcavüzkarla kompromisə getməyi mümkünsüz edir: "Cinayətkarlar cinayətkar adlandırılmalı, mühakimə olunmalıdır. Buçadan olan fotolar nəyin bahasına olursa olsun, kompromis axtarmaq lazım olduğu inamını təkzib edir. Əslində, Ukrayna müdafiəçilərinə ilk növbədə üç şey lazımdır: silah, silah və yenə də silah". Rusiya isə Qərbin ittihamlarını təkzib edib. Xarici işlər naziri Sergey Lavrov vurğulayıb ki, Buça küçələrində tamaşa göstərirlər. Onun sözlərinə görə, Buça şəhərindən rus əsgərlərinin plan üzrə çıxmasından sonra yeni saxta hücum həyata keçirilib: "Orada rus əsgərləri getdikdən bir neçə gün sonra Ukrayna nümayəndələri və onların Qərb himayədarları tərəfindən quraşdırılan səhnə bütün kanallar və sosial şəbəkələrdə yayılıb. Rus əsgərləri martın 30-da bu şəhəri tamamilə tərk etdilər və martın 31-də mer dedi ki, hər şey yaxşıdır. Amma iki gün sonra gördük ki, hazırda antirusiya məqsədləri üçün istifadə etməyə çalışdıqları bu tamaşanı küçələrdə səhnəyə qoyublar".

Politoloq Əhəd Məmmədli bildirib ki, Ukraynadakı qətliamlar Rusiyanın iç üzünü açacaq. Analitik bildirib ki, Ukraynanın əlində qətliama və təcavüzə dair fotofaktlar, video-görüntülər var: "Rusiya özünü nə qədər təmizə çıxarmağa, əməllərini inkar etməyə çalışsa da, törətdiyi dəhşətli cinayətlərin məsuliyyətindən boyun qaçıra bilməyəcək. Bunların ortaya çıxması Rusiyanın işğalçılıq siyasətinin və insanlığa yaraşmayan hərəkətlərinin ifşasıdır. Ukraynaya dəstək çıxan və Rusiyanın qarşısına olan Qərb ölkələri media və sosial şəbəkələr, o cümlədən beynəlxalq təşkilatlar müstəvisində rusların çirkin üzünü dünya ictimaiyyətinə çatdırmağa çalışacaqlar. Xocalı soyqırımını kimlərin həyata keçirdiyi hamıya məlumdur. Əlimizdə o qədər dəlil-sübut olmasına baxmayaraq, mülki insanların, uşaq və qadınların qətlinə görə soyqırımda iştirak etmiş rus əsgərlərin cəzalandırılmasına nail ola bilməmişik. Böyük ehtimal indi də birbaşa cəzalandırılma mümkün olmayacaq. Sadəcə Rusiyaya qarşı hərtərəfli sanksiyaları çoxaldacaqlar. Əgər nə vaxtsa Rusiyada hakimiyyət dəyişərsə və Qərblə anlaşma olarsa, o zaman qatil rus əsgərlərinin cəzalanmasından danışmaq olar. İndiki halda Moskva bunda qətiyyən maraqlı deyil və qətlləri inkar edir. Qərbin də əlində hansısa təsir rıçaqları yoxdur".

İsmayıl Qocayev

"Qiymət artımı və inflyasiya riskləri ilə üz-üzəyik"

Rəşad Həsənov: "Hökumət ehtiyatları artırmaq məqsədilə sahibkarlara faizsiz pullar verməlidir"

Tacikistan Prezidenti Emoməli Rəhmon əhalini 2 illik ərzaq ehtiyatı toplamağa və dövlət müstəqilliyinin müdafiəsinə hazır olmağa çağırıb. Mərkəzi Asiya ölkəsinin rəhbəri Ramazan ayının başlaması ilə bağlı xalqa müraciətində bildirib.

"Dünyada siyasi, hərbi, iqtisadi və sosial vəziyyətin son dərəcə gərgin, böhranlı, mürəkkəb və təhlükəli olduğu bir şəraitdə ayrı-ayrı ölkələrin müstəqilliyi və azadlığı, onların dövlətçilik strukturu məsələsi ciddi sual altındadır. Bu da hər birimizi həmrəy olmağa, dövlətin və cəmiyyətin təhlükəsizliyini təmin etməyə səsləyir. Biz həyatımızın əvəzsiz neməti olan dövlət müstəqilliyini və onun əldə etdiyi nailiyyətləri - sülhü, əmin-amanlığı, siyasi sabitliyi, milli birliyi qorumağa hər zaman hazır olmalıyıq", - o deyib.

Dövlət başçısının sözlərinə görə, hər bir ailə özünü necə təmin edəcəyini düşünməli, mümkün qədər çox ərzaq istehsal etməli və iki il ərzində lazımi ərzaq ehtiyatı yığmalıdır.

Bəs, Azərbaycanda ərzaq məhsulları ilə bağlı vəziyyət necədir?

"Şərq"in sualını cavablandıran iqtisadçı-ekspert Rəşad Həsənov hesab edir ki, Azərbaycandakı vəziyyət Tacikistanla müqayisədə nisbətən daha yaxşıdır:

"Azərbaycanın strateji valyuta ehtiyatları digər MDB ölkələrinə münasibətdə çoxdur. Ərzaq qıtlığı kimi risklər yarandığı təqdirdə valyuta ehtiyatlarımız təxminən 35-40 aylıq qida məhsulları idxal etmək imkanındadır. Qiymət bahalaşması, inflyasiya riskləri ilə üz-üzəyik. Ötən ilin sonundan etibarən rəsmi şəkildə etiraf olunmağa başlamışdı. Hətta Mərkəzi Bank 2022-ci ilin yanvar ayında inflyasiya hədəfini dəyişdi, 7-8 faizə çatdırdı. Çünki pandemiya istehsal prosesində fasilələr yaradır. Bu isə qiymətləri bahalaşdırır".

İqtisadçı mövcud duruma Rusiyanın Ukraynanı işğalı cəhdiyby də təsir göstərdiyini bildirir:

"Hadisə dünyaya yenidən dizayn verdi. Həm Ukrayna, həm Rusiya Azərbaycanın əsas idxal tərəfdaşıdır. 2 milyard dollar Rusiyadan, 480 milyon dollarlıq isə Ukraynadan məhsul idxal olunur. 2021-ci ildə ölkəyə 221 milyon dollarlıq bitki yağı idxal olunmuşdu, 47-48 faizi Rusiyanın payına düşür. Dərman təchizatında, elektrik avadanlıqlarında Rusiyanın payı çoxdur. Sanksiyalar bazarda vəziyyətin dəyişməsinə, Rusiya hökumətinin daxili bazarını qoruması istiqamətində qərarlar alınmasına, Azərbaycana ixrac edilən məhsulların məhdudlaşmasına səbəb oldu. Ukraynada isə iqtisadi münasibətlər dağıldı. Azərbaycana hər 100 kiloqram toyuq ətinin 71 kiloqramı Ukraynadan gətirilirdi. Kərə yağının 21 kiloqramı da ordan gəlirdi. Ukraynadan idxal olunan kərə yağı ölkə səviyyəsində istehsal edilən kərə yağının 8 faizinə bərabər idi".

R.Həsənov sonda hökumətin ərzaq təminatı sahəsində də fəaliyyət göstərən şirkətlərin faizsiz vəsaitlərlə təmin edilməsi yolu ilə ehtiyatlarını artırması gərəkliyini söyləyib. Çünki sahibkar o qədər vəsaiti anbarlarda saxlaya bilməz:

"Hökumət ehtiyatları artırmaq məqsədilə sahibkarlara faizsiz pullar verməlidir. Sahibkarlar da məhsulları gətirib anbarlarda saxlamalıdır.

Son vaxtlar bizim kənd təsərrüfatı məhsullarının Rusiyaya ixracında problem yaranıb. Rubl dəyərsizləşib, satmaq sərf etmir. Hökumət mexanizmlərindən yararlanmalıdır. Həm bazarda fermerləri qorumaq, həm də ehtiyatları artırmaq üçün real alışa keçməlidir. Yerli məhsullar və yığılma ehtiyatları yaratmağa başlamalıdır.

Antiinflyasiya tədbirləri çərçivəsində Nazirlər Kabinetinin qərarına əsasən hazırlanan tədbirlər paketi, iqtisadiyyatın liberallaşması, xarici investisiyanın, həmçinin Qarabağın daha tez iqtisadiyyata cəlb edilməsi kimi məsələlər həllini tapmalıdır".

Aygün Tahir

Bəxtini bir də sınayanlar

Ailələrində böyük münaqişə ocaqları yaradırlar

Son qəpiyini lotoreyaya verənlərin sıraları genişlənib, növbədə qadınlar, uşaqlar da var

Sücayət Mehti

Millət yeni "qazanc" mənbəyi tapıb. Lotereyaya maraq gündən-günə artır. Metroların çıxışlarında uduşlu oyun üçün qələbəlik yaranır. İnsanlar xüsusilə də köşklərin qarşısında biletlərdən "üzlərinə gün doğacağı" ümidilə növbə gözləyirlər. İstər şəhərdə, istərsə də rayonlarda uşaqdan böyüyə lotoreyaya həvəs göstərirlər. Hətta oyunun aludəçisinə çevriliblər, desək, daha doğru olar.

Elə ailələr var ki, evindəki son qəpiyini də uduşlu bilet almağa sərf edir. Şans üzünə gülsə, o son qəpiyinə qarşılıq ailəsinə qazanc aparacaq. Əks halda isə bəxtəbəxt oyun olduğunu nəzərə alsaq, əlində olanı da itirəcək. Təbii ki, belə olduğu halda ailədə də narazılıqlar baş qaldırır. Qadın kişinin evə pul gətirmək əvəzinə olanı da aparıb uduzmasına etirazlar edir. Belə olduğu halda münaqişələr ortaya çıxır. Doğrudur, lotoreyadan uduşlar əldə edənlər də az deyil. Bu oyunları qumar növü hesab edərək əleyhinə olanlar, ləğvini istəyənlər də var. Dövlətin büdcəsinə gəlir gətirir, deyərək davam etməsini məqbul sayanlar da mövcuddur. Bununla bağlı "Azərlotoreya"dan verilən məlumata görə, lotoreya oyunlarının təşkili və keçirilməsi "Lotoreyalar haqqında" Qanuna uyğun olaraq aparılır.

İqtisadçı Natiq Cəfərli "Şərq"ə açıqlamasında bildirib ki, insanlar gəlirsizlikdən əziyyət çəkirlər:

"Lotoreyadan nəsə əldə etmək olar deyə onlarda bir inam yaranır. Ona görə də 1-2 manatlıq "Poz, qazan"lara yönəlirlər. Biletlərlə keçirilən bu uduşlu oyunların iqtisadiyyata böyük təsiri yoxdur. Çünki məsələn, 40 milyonluq "Poz, qazan" lotoreyası buraxılıb. İqtisadi aspektdən yanaşdıqda əslində kiçik rəqəmdir. Amma əhali qazanaraq həyatlarını dəyişə biləcəkləri xəyalı ilə oyunlara qoşulurlar".

Psixoloq Elmir Əkbər isə diqqətə çatdırıb ki, mərc oyunlarının hər birinin kökü psixofiziologiyaya söykənir:

"Təbii ki, istər lotoreya, istərsə də idman mərc oyunları qumarın bir növüdür. Yəni insan heç bir fiziki və ya əqli səy göstərmədən pul qazanmağa can atır. Bu istəyin arxasında da müəyyən psixoloji problemlər dayanır. Mərc, qumar oyunları, narkotik, toksikomaniya, spirtli içkiyə meyil etmək addiksiya adlanır. Ümumiyyətlə, bu oyunların satışı ilə məşğul olan şəxslər ilk dövrlərdə onu geniş yayılan etmək üçün 3-5 manat pulu kimlərəsə qazandırırlar. Amma insanların sadəlövhcəsinə lotoreyadan uduş əldə edəcəklərini düşünməsi çox gülünc və absurddur. Biletlərlə keçirilən oyunların əsas mahiyyəti onu düzüb-qoşan, təşkil edən insanların qazanmasıdır. Alanların yox".

Psixoloq: *"Bəşəriyyət tarixində hələ elə zəngin insan olmayıb ki, gəlirini artırmaq məqsədilə lotoreya və ya başqa bir mərc oyunu oynasın"*

Psixoloq qeyd edib ki, bəşəriyyət tarixində hələ elə zəngin insan olmayıb ki, gəlirini artırmaq məqsədilə lotoreya və ya başqa bir mərc oyunu oynasın:

"Həmişə kasıb insanlar bu yollara can atıb, varlı olacaqlarına inanırlar. Nəticədə də əllərindəki son qəpiklərini itirib, müflisləşirlər. Ən məşhur kazinolardan biri Monakoda yerləşir. Oraya ailəvi səyahətimizdə çox maraqlı bir məsələ barəsində məlumatlandım. Həmin kazinoya insanlar dünyanın hər yerindən oynamaq üçün gəlirlər. Təkcə yerli Monako əhalisindən başqa. Çünki onlara icazə yoxdur. Nəzərə alsaq ki, orada yaşayan əhali varlı təbəqədir, aydın olur ki, pulla oynanılan həmin oyunların məğzi nədən ibarətdir. Belə şəxslərin sadəcə çox ciddi psixoterapevtik müdaxiləyə ehtiyacı var. Biri var, insan məsələn, illərini şahmata həsr edir, təhsil alır, məşqlər edir, sonra da böyük bir beynəlxalq yarışa qatılır. Öz beyninin məhsulu, illərlə çəkdiyi əziyyətin bəhrəsini görür. Biri də var ki, lotoreya oyunu vasitəsilə ancaq əziyyətsiz pul qazanmağı arzu edirlər".

E.Əkbər bunu da əlavə edib ki, pandemiya səbəbindən karantin dövrü bütün dünyanı çalxalayıb:

"Qabdakı suyu qarışdıranda dibindəki çöküntü üzə çıxan kimi problemlər də qabarıb. Lotoreya oyunları 90-cı illərdə də belə aktual idi. O dövrdə də savaşdan çıxmış ölkə, stress azmış kimi digər tərəfdən də işbazlar əhalinin kasıb təbəqəsinin əlində olan pulunu bu üsulla onlardan alıb. İndi də diqqət etdikdə görürük ki, karantin, əhalinin psixoloji çöküşü, daha sonra müharibə, onun itkiləri həmin dövrü xatırladır. Doğrudur, qalib ölkə olsaq da, hər halda döyüşün gərginliyi qələbə çalanlar üçün də var. Yenə biletli uduş oyunları belə aktullaşıb. Ümumiyyətlə, dahi insanlar da, məsələn, Lev Tolstoy, F.M.Dostoyevski mərc oyunlarının insan üçün zərərli olduğunu yazıblar. Ona meyil etmək primitiv düşüncənin məhsuludur".

İsmayıl Qocayev

İmran Xanın istefası gözlənilən idi

Pakistan Rusiya ilə ABŞ arasında seçim qarşısındadır

Pakistanın Baş naziri İmran Xan parlamentin buraxılmasından sonra istefaya göndərilib. Lakin yeni baş nazir təyin edilənə qədər İ.Xan müvəqqəti vəzifəsini icra edəcək. Növbədənkənar parlament seçkiləri 3 ay sonra keçiriləcək. Ekspertlərə görə, İmran Xanın istefası gözlənilən idi. Məsələ ondadır ki, İmran Xanın bir müddət öncə Rusiyaya səfəri ölkədə ciddi etirazlara səbəb olub.

Səfər sonrası müxalifət ölkə parlamentində İmran Xana etimadsızlıq səsverməsi keçirməyə cəhd edib. İmran Xan isə Parlamentin ona etimadsızlıq təklifini rədd edib. Daha sonra Nazirlər Kabinetini istefaya göndərib. İmran Xan müxalifət təmsilçilərinin onu istefaya səsləməsini ABŞ-ın hökuməti devirməsi olaraq qiymətləndirib. Hazırda baş verən proseslərin İmran Xanın nəzarətində həyata keçirildiyi görünür. Bu mənada mümkündür ki, o, yenidən baş nazir seçilsin. Bununla belə hazırda İmran Xanın postuna əsas namizəd, onun rəqibi "Müsəlman Liqası"na mənsub olan Mian Məhəmməd Şahbaz Şərifdir. Hansısa fors-major hal baş verməsə, İmran Xanı Mian Məhəmməd Şahbaz Şərif əvəzləyə bilər.

> "Pakistanın ordu generalları da Rusiya ilə münasibətlərdə ehtiyatlı olmağın tərəfdarıdırlar"

Dost ölkədə yaşanan olayları "Şərq"ə şərh edən "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu bildirib ki, Pakistan Rusiya ilə ABŞ arasında seçim qarşısındadır. Analitikə görə, koalisyon hökumətin istefasının İslamabadın xarici siyasəti ilə bağlılığı var: "İmran Xan fevralın 24-də Rusiyaya səfər edərək bu ölkənin Prezidenti Vladimir Putinlə görüşmüşdü. Bu, Rusiyanın Ukraynaya qarşı işğalçı müharibəsi başladığı gündür. İmran Xan Rusiyaya səfərinin Ukraynaya qarşı işğalçı müharibəyə başlayacağı günə təsadüf edəcəyini bilsəydi, böyük ehtimalla bu səfəri təxirə salardı. İmran Xanın Rusiyaya səfəri müxalifətin ona qarşı təzyiqinin artmasına səbəb olub. Pakistan parlamentində İmran Xanın baş nazir vəzifəsindən uzaqlaşdırılması məqsədilə səsvermə planlaşdırılırdı. Koalisyon hökumətdən ayrılanlar oldu. Bu, İmran Xanın baş nazir kreslosunu itirməsinə yol açırdı. İmran Xan parlamentdə özü üçün mənfi nəticə ilə üzləşməmək üçün hadisələri qabaqlamağa üstünlük verdi. İmran Xan özü hökuməti buraxaraq erkən parlament seçkiləri təyin etdi. Yəni səsverməyə ehtiyac qalmadı. Yeni seçkiyə qədər isə İmran Xan vəzifəsini icra edəcək. Bu ona imkan verəcək ki, seçkiyə yaxşı hazırlaşa bilsin".

E.Şahinoğlu bəyan edib ki, İmran Xan ona qarşı təxribatın hazırlandığı qənaətindədir: "Təxribatın ünvanı kimi isə Vaşinqton göstərilir. Ağ Ev İmran Xanın xarici siyasətindən narazıdır. Birincisi, İmran Xan Çinlə ənənəvi müttəfiqliq siyasətini genişləndirir. İkincisi, İmran Xan Rusiya ilə ortaq layihələrə maraq göstərir. Bütün bunlar Vaşinqtonun xoşuna gəlmir. Onun fikrincə, hökumət koalisiyasının dağılmasının arxasında Vaşinqtonun siyasəti dayanır. ABŞ-ın Pakistandakı səfiri Ancella Aqeller Xarici İşlər Nazirliyinə çağrılaraq ona etiraz bildirilib. Pakistan kəşfiyyatı hətta baş nazirə qarşı qətl planı hazırlandığını açıqlayıb. ABŞ bütün bu iddiaları təkzib edib. Pakistanın özündə xarici siyasətdə Çinə və Rusiyaya birtərəfli üstünlüyün yanlış olduğunu vurğulayırlar. Əlbəttə, Amerikanın Hindistanla sıx əlaqələri Pakistandakı siyasi dairələrin xoşuna gəlmir. Ancaq Pakistanın Ağ Evlə ənənəvi əlaqələri mövcud olub və Rusiya ilə Çinin xeyrinə bu əlaqələrdən imtinanın yanlış olduğunu söyləyənlər var. Pakistan müxalifəti Rusiyanın Ukraynada apardığı işğalçı müharibəni və son qətliamları pisləyərək İslamabadın Kremllə strateji tərəfdaşlığa çalışmasını yanlış adlandırırlar. Pakistanın ordu generalları da Rusiya ilə münasibətlərdə ehtiyatlı olmağın tərəfdarıdırlar".

Atəş səsləri...

Ermənistan həlledici məqamlarda həmişə təxribatlara əl atır

Ermənistan tərəfi növbəti təxribata əl atıb. Düşmənin silahlı qüvvələri Azərbaycan Ordusunun Tovuz rayonu istiqamətində yerləşən mövqelərini müxtəlif çaplı silahlardan atəşə tutublar.

Azərbaycan Müdafiə Nazirliyinin məlumatına görə, ordumuzun qeyd olunan istiqamətlərdə yerləşən bölmələri tərəfindən adekvat cavab tədbirləri görülüb: "Azərbaycan Ordusunun sıralarında şəxsi heyət və texnika baxımından itki yoxdur. Hazırda bu istiqamətlərdə vəziyyət sabitdir, əməliyyat şəraiti bölmələrimizin tam nəzarəti altındadır". Xatırladaq ki, aprelin 6-da Avropa İttifaqı Şurasının təşəbbüsü ilə Azərbaycan və Ermənistan rəhbərliyi arasında görüş keçirilməsi planlaşdırılır. Liderlərin növbəti təmasında sülh sazişi ilə bağlı mühüm məqamların müzakirə olunacağı, sərhədlərin müəyyənləşməsi və regional kommunikasiyaların açılması məsələsinin masaya yatırılacağı iddia olunurdu. Siyasi şərhçilərə görə, görüş öncəsi, ələlxüsus sülh sazişi ilə bağlı müzakirələrin getdiyi məqamda Ermənistan tərəfinin sərhəddə təxribata əl atması təsadüfi deyil və müəyyən məqsədlərə xidmət edir.

"İrəvan hökuməti yekun sülh müqaviləsinin imzalanmasında maraqlı deyil"

Ermənistanın növbəti təxribatı ilə bağlı "Şərq"ə danışan millət vəkili Ceyhun Məmmədov deyib ki, İrəvan hökuməti yekun sülh müqaviləsinin imzalanmasında maraqlı deyil. Deputatın sözlərinə görə, Baş nazir Nikol Paşinyan hər vəchlə sülh sazişinin imzalanmasına mane olmağa çalışır: "İrəvan hökuməti tərəfindən atılan bütün addımlarda əsas qayə prosesi mümkün qədər uzatmaq, razılaşma sənədinin imzalanmasını yubatmaqdır. Sərhəddəki mütəmadi təxribatların məqsədi budur. Əgər Ermənistan real sülhdə maraqlı olsaydı, o zaman hər hansı təxribat baş verməzdi. Bütün təxribatlara görə birbaşa məsuliyyəti İrəvan hakimiyyəti daşıyır. Belə məqamda hansısa sülh müqaviləsinin imzalanmasından söhbət gedə bilməz. Çünki Ermənistan burada pozucu rol oynayır. İrəvan anlamalıdır ki, Azərbaycan tərəfi heç bir güzəştə getməyəcək. İstər sərhəddə, istərsə də Qarabağda ermənilərin bütün təxribatlarının qarşısı alınacaq. Erməni tərəfinin təxribatları davam edərsə, cavab çox sərt olacaq. Bu isə Ermənistan üçün növbəti faciə və insan itkisi deməkdir".

İsmayıl Qocayev



Putin müharibəni 9 maya qədər uzadacaq

Moskvanın məqsədi Donbasda tutduğu əraziləri genişləndirməklə Krıma quru yolunu açmaq və əlavə torpaqlar ələ keçirməkdir

Rusiya və Ukrayna arasında başlayan müharibədən artıq 40 gün keçir. Bu müddət ərzində Ukraynanın əhalisi və infrastrukturu Rusiyanın isə iqtisadiyyatı çox ciddi zərbələr alıb.

Eyni zamanda hər iki ölkənin yüzlərlə əsgər və zabiti döyüşlərdə həlak olub.

Müharibənin 40 gününu "Şərq"ə şərh edən politoloq Əlimusa İbrahimovun sözlərinə görə, Rusiya savaşı başlayanda "ildırımsürətli" müharibə kimi bitirmək istəyirdi:

"Hətta 48 saata döyüşü bitirmək qərara alınmışdı. Ancaq bir aydan artıq davam edən müharibə hələ də bitməyib, bilmir. Bu səbəbdən, Rusiya öz planlarında dəyişiklik etməyə məcbur qalıb.

Əvvəl iki istiqamətdə hücum əməliyyatı aparırdısa, indi Kiyev və Çernobıl istiqamətində ordusunu çıxarmağa məcbur olub. Kreml artıq Kiyevi tutmaq fikrindən əl çəkib. İndi Rusiyanın bütün qüvvələri Krım, Odessa, Donetsk və Luqansk ətrafında cəmləşib. Moskvanın məqsədi Donbasda tutduğu əraziləri genişləndirməklə Krıma quru yolunu açmaq və əlavə torpaqlar ələ keçirməkdir. Rusiya Donetsk ətrafı əraziləri tamamilə boşaldıb Ukraynadan ayırmaq istəyir. Putin bu prosesi 9 may Qələbə Gününə qədər yekunlaşdırmaq niyyətindədir. Ukrayna da müharibənin həmin tarixə qədər bitməsinin tərəfdarıdır.

Rusiyanın qalib gələ bilməməsinin əsas səbəbi Ukrayna xalqının yaxşı müdafiə olunmasıdır. Digər səbəb isə onun arxasında ABŞ, NATO və Avropa ölkələrinin dayanmasıdır".

Politoloq qeyd edib ki, çox güman ki, müharibə getdikcə qızışacaq:

"Rusiya ərazilərini genişləndirməyə israrlıdır, digər tərəfdən də Ukraynaya NATO ölkələrindən yeni silahlar gəlir. Nəticədə hər keçən gün qarşıdurmanın şiddəti artır.

Hər iki ölkəni yaxın 10-15 gündə ciddi döyüş gözləyir. Müharibə Rusiyanın sürətli şəkildə zəifləməsi ilə nəticələnəcək. Ən sonda zəifləyən tərəflər danışıqlar masasına oturacaq".

Sənan İsmayıl

"Avropa İttifaqı Rusiyaya güzəştə getməsə, rublla qaz almasa, qiymətlər daha da artacaq". Bu barədə İranın "Farda" nəşri yazıb. Nəşrin yazdığı məlumatda bildirilib ki, Polşanın keçmiş baş naziri Donald Tuskun öz ölkəsində çörəyin qiymətinin yaxın gələcəkdə dörd dəfə arta biləcəyi proqnozuna istinad edilir:

"Buna səbəb Ukraynada əkin kampaniyasının pozulmasıdır. Digər təhlükəli tendensiya isə yanacaq qiymətinin artması ilə əlaqədardır. Avropa İttifaqı Rusiyaya güzəştə getməsə, rublla qaz almasa, qiymətlər daha da artacaq. Bu, enerji və avtomobil yanacağının qiymətinə də təsir edəcək. Nəticədə isə bir çox digər məhsullar, o cümlədən ərzaqlar bahalaşa bilər".

Rusiya-Ukrayna savaşı dünyada qiymət artımı yaradıb

Xalid Kərimli: "Qiymətlərin yüksəlməsi Azərbaycana da gələcək"

İqtisadçı Xalid Kərimli "Şərq"ə açıqlamasında bildirib ki, enerji, neft qiymətləri piklərdən 100-110 dollar intervalına düşüb: "Qiymət artımı müharibəyə qədər də olub. Müharibə və onun fonunda tətbiq edilən sanksiyalar Rusiya iqtisadiyyatının bu il 7-11 faiz geriləməsi ilə nəticələnəcək. Amma cəza tədbirləri ilə iqtisadi inkişafın dayanması prosesinin 7-11 faiz olacağı ehtimalı var. Bundan başqa təbii ki, Avropa iqtisadiyyatının genişlənməsi də ləngiyəcək. Enerji qiymətlərinin bahalaşması Azərbaycan üçün xeyirdir. Amma dünya üçün fəsadlarından biri enerji qiymətlərinin yüksək olmasıdır. Bu, inflyasiyanı, daşıma xərclərini artırır. Rusiya da, Ukrayna da ərzaq xammalı ölkəsidir. Savaşın bu ölkələrin iştirakı ilə getməsi məhsulların da qiymətini bahalaşdırır. Rusiyaya tətbiq edilən cəza tədbirləri ərzaq, taxıl məhsullarını bahalaşdıran amildir. Ukraynanın əkin kampaniyasından kənarda qalması ehtimalı taxıl qiymətlərini də qaldıra bilər. Ümumdünya Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı dəyərləndirib ki, böhran, müharibə dünya ərzaq qiymətlərini indiki səviyyədən 8-22 faiz çox artıracaq".

İqtisadçı qeyd edib ki, qiymətlərin yüksəlməsi Azərbaycana da gələcək:

"Artım ehtimalı böyükdür. Yükdaşımaların marşrutlarının dəyişməsi, Qaradəniz üzərindən ticarətin dayanması bütün dünyada daşıma xərclərinin bahalaşmasına gətirib çıxaran məsələlərdir".

Sücayət Mehti

"Bakı ilə Roma arasında çox ciddi əməkdaşlıq var"

Məlahət İbrahimqızı: "İtaliya müharibədə bizə dost münasibəti göstərdi"

Ötən günlərdə Bakıda İtaliya-Azərbaycan Universitetinin təməlqoyma mərasimi keçirilib. Təməlqoyma mərasimində Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramov, Energetika naziri Pərviz Şahbazov, Təhsil naziri Emin Əmrullayev, İtaliyanın Xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Luici Di Mayo iştirak ediblər.

Nazirlər universitetin təsisi ilə bağlı sənədə imza atıblar. Həmçinin, yaxın zamanlarda İtaliyada Azərbaycan Mədəniyyət Mərkəzinin açılması planlaşdırılır. Azərbaycan Xarici işlər naziri Ceyhun Bayramov İtaliyanın Xarici işlər naziri Luici Di Maio ilə birlikdə keçirdiyi mətbuat konfransında bildirib. O qeyd edib ki, Azərbaycan-İtaliya münasibətləri xüsusi önəm kəsb edir:

"Biz diplomatik münasibətlərimizin təsis edilməsinin 30 illiyini qeyd edirik. İtaliya-Azərbaycan münasibətləri qarşılıqlı hörmət əsasında həyata keçirilir".

Son zamanlarda Azərbaycan və İtaliyanın təhsil və mədəniyyət sahəsində atdığı addımlar hər iki dövlət üçün müsbət qiymətləndirilir. Bu addımların siyasi və iqtisadi sahələrə də inkişaf yönümlü təsir edəcəyi istisna edilmir.

İtaliya ilə Azərbaycan arasında baş tutan yenilikləri "Şərq"ə dəyərləndirən millət vəkili Məlahət İbrahimqızı bildirib ki, İtaliya bizim həqiqi tərəfdaşımız olan ölkələrdəndir:

"Sözsüz ki, mən də bu universitetin təməlqoyma prosesini yaxından izlədim. Həmçinin, İtaliyanın xarici işlər nazirinin görüşündə də iştirak etdim. Ümumiyyətlə, İtaliya Azərbaycanla çox yaxın olan ölkələrdəndir və iki ölkə arasında strateji tərəfdaşlıq var.

Bizim dost hesab etdiyimiz ölkələrin bəziləri 44 günlük Vətən müharibəsində o dostluğu imtahan sınağından müvəffəqiyyətlə keçirə bilmədi.

Amma İtaliya bu müharibədə bizə qarşı həqiqi dost münasibətini göstərdi. İqtisadi sahədə də Bakı ilə Roma arasında çox ciddi əməkdaşlıq var. Hər iki ölkədə də ticarət dövriyyəsi çox yüksək dəyərləndirilir".

Millət vəkili hesab dir ki, belə layihələr təkcə dövlətlərin deyil, həm də xalqların dostluğuna müsbət təsir göstərəcək:

"Bilirsiniz ki, çoxlu tələbəmiz orada təhsil alır. Bu gün də ölkədə belə universitetin inşa olunması və yaxın gələcəkdə fəaliyyəti tərəfdaşlığımıza müsbət təsir edəcək. Dövlətin müvafiq strukturları arasında qarşılıqlı inkişaf görüləcək. Bununla yanaşı, xalqlar arasında da münasibətlər inkişaf edəcək. Çünki təhsil və mədəniyyət xalq diplomatiyasının ən əsas prinsiplərindən biridir. Bu gün dünyada siyasi diplomatiyanı o qədər məmnunluqla qəbul etmirlər.

Bir çox hallarda siyasi diplomatiyadan daha çox mədəniyyət, humanitar, təhsil, idman kimi sahələr özünü göstərir. Elə son illərdə də möhtərəm Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu və onun UNESCO və İSESCO-nun xoşməramlı səfiri olması sayəsində ölkəmizdə xalq diplomatiyasında, o cümlədən, idman, təhsil, mədəniyyət sahələrində böyük uğurlar əldə olunub.

Hazırda da Avropanın inkişaf etmiş ölkələri cərgəsinə daxil olan İtaliyanın Azərbaycanla belə sahələrdə konkret layihələrlə əməkdaşlığı bu ölkələrin və xalqların dostluğunu daha da inkişaf etdirib möhkəmləndirəcək".

Çimnaz Şahlar

"Ortada razılaşdırılmış sənədlər olmalıdır"

Natiq Miri: "Yaxın müddətdə minimum nəticə qazanılmasa, Putinlə Zelenskinin görüşməsi mümkün deyil"

Rusiyanın Ukraynaya qarşı başlatdığı müharibə Qərb ölkələrinin ciddi tənqidi və rəsmi Moskvaya qarşı sanksiyalarına səbəb olub.

Türkiyənin Milli müdafiə naziri Hulusi Akar regionda sülhə töhfə vermək üçün əlindən gələni etməyə davam etdiklərini bildirib.

O qeyd edib ki, Ukraynada müharibənin dayandırılması üçün Türkiyənin aidiyyəti qurumları və dövlət başçısı tərəfindən lazımi addımlar atılır.

"Ümid edir və arzu edirik ki, çox qısa müddətdə cənab Putin və cənab Zelenski prezidentimizin vasitəçiliyi altında bir araya gəlsin. Bunun baş verə biləcəyini qiymətləndirir və gözləyirik"- deyə nazir bildirib.

Görəsən, prezidentlərin görüşünün gerçəkləşməsi nə qədər realdır?

"Şərq"in sualını cavablandıran politoloq Natiq Mirinin sözlərinə görə, V.Putinlə V.Zelenskinin görüşünün reallaşması üçün mütləq şəkildə danışıqlar əsasında nəticə kimi ortalığa çıxan bütün razılaşdırılmış sənədlər hazır olmalıdır:

"Ukrayna belə bir sənədin varlığından söz açıb. Rusiyanın isə sənədin tam yekunlaşmamasına dair müəmmaları var. Rəsmi Moskva istədiyi hərbi, siyasi nəticələri hələki əldə etməyib. Artıq bütün qoşunlar Kiyev ətrafından çıxarılır. Qoşunlar əsasən Ukraynanın Şərqinə - Donbasa, və Cənub hissəyə istiqamətlənir. May ayının 9-na qədər V.Putin minimum hədəflərə, Donbas vilayətinə, Luqansk və Donetsk separatçı rejimlərin inzibati ərazi sərhədlərinə çıxmaq istəyir. Həmin ərazidəki Mariupol şəhəri nəzarət altına düşməlidir, ardınca Rusiyanın Krımla sərhədi üçün dəhliz yaradıla bilsin. V.Putin sözügedən hadisəni xalqına qələbə kimi tanıdaraq 9 Mayda iki bayramı bir gündə keçirməyə səy göstərir".

Politoloq söyləyir ki, yaxın müddətdə minimum nəticə qazanılmasa, Putinlə Zelenskinin görüşməsi mümkün deyil:

"Rusiya Donbasdakı hədəflərinə çatarsa, Zelenski də işğalı qəbul etdiyi təqdirdə ehtimalən prezidentlərin görüşü İstanbul, yaxud Ankarada reallaşa bilər. Nəticə etibarilə, atəşkəs razılığına gələ bilərlər, lakin müəyyən şərtlər lazımdır. Atəşkəs sənədi imzalamaqla məsələ bitmir. Ukraynanın neytral statusu təsdiqləməsi üçün onun təhlükəsizliyinə zəmanət verən ölkələr olmalıdır. Ukraynanın müəyyənləşdirdiyi 12 ölkənin adı mövcuddur. Bir çox ölkələr, başda ABŞ hələlik məsələnin həll edilməsinin mümkünsüzlüyünü bildirirlər. Görünür, ABŞ Rusiyanın burnunun tamamilə ovulmadığını düşünür, müharibənin irəliləməsinə can atır. Sonda da Rusiyanın iqtisadi, siyasi yöndə çöküşünü diləyir. Müharibənin dayanma ehtimalı o qədər də az deyil".

Aygün Tahir

Qazaxın işğal olunan kəndləri də qaytarılacaq

Sərxan Carçı: "Fərrux yüksəkliyinin nəzarətə götürülməsindən sonra durum fərqli oldu"

Tural İrfan: "Orada bir neçə kənd anklav şəraitində olduğuna görə birbaşa azad edilməsi uzun prosesdir. Sanki Qarabağ məsələsinin kiçik formasıdır"

2020-ci ilin noyabrın 10-da Azərbaycan, Rusiya və Ermənistan rəhbərlərinin birgə bəyanatı ilə Qarabağ müharibəsi başa çatıb. Üçtərəfli razılaşmanın 2-ci bəndinə əsasən, Qazax rayonunun işğal edilmiş 7 kəndi də Azərbaycana geri verilməlidir.

Azərbaycana qaytarılacaq 7 kənd Sofulu, Barxudarlı, Bağanis Ayrım, Qızıl Hacılı, Yuxarı Əskipara, Aşağı Əskipara və Xeyrimli kəndləridir. Azad ediləcək kəndlərin 3-ü Azərbaycanın Ermənistandakı eksklavıdır. Bu eksklavlar Sofulu, Barxudarlı və Yuxarı Əskipara kəndləridir. Məlum sənədin qəbulundan xeyli müddət keçsə də, Qazaxın adıçəkilən kəndlərinin qaytarılması prosesi hələ ki baş tutmayıb.



Məsələ ilə bağlı "Şərq"ə danışan əslən Qazaxdan olan araşdırmaçı jurnalist Sərxan Carçı bildirib ki, bu barədə müxtəlif məlumatlar yayılır:

"Həmin ərazilərdə çox yaşayış yox idi. Fərrux yüksəkliyinin nəzarətə götürülməsi olayından sonra durum fərqli oldu. Hər halda Qarabağda canlanma var, yəqin, bu canlanma Qazaxa da yansıyar. Anlaşmaya əsasən Qazaxın 7 kəndi qaytarılmalıdır".

Milli Cəbhə Partiyasının sədr müavini, jurnalist Tural İrfanın sözlərinə görə, 10 noyabr bəyannaməsinin müddəalarına uyğun olaraq Ağdamla bərabər Qazaxın 7 kəndi də qaytarılmalı idi. Sadəcə, ermənilər həmin ərəfədə müəyyən problemlər yaratdılar:

"Müddəada göstərilən Qazaxın kəndləri ikinci planda qaldı. Çünki əsas diqqət Qarabağa yönəlmişdi. Qazaxın kəndləri diqqətdən kənarda qalmayıb, lakin ləngimələr var. Orada bir neçə kənd anklav şəraitində olduğuna görə birbaşa azad edilməsi uzun prosesdir. Sanki Qarabağ məsələsinin kiçik formasıdır. Kəndlərindəki ermənilər də torpaqların onlara məxsus olmadığını bilirlər. Qazaxın kəndlərinə ermənilərin torpaq iddiası olmayıb. Sadəcə, strateji yüksəkliyinə görə götürüblər. Gedişat məsələnin 1-2 günün içində də həllini tapa biləcəyini göstərir. Lakin sülhməramlıların həmin ərazilərdə yerləşdirilməsinin gündəmə gəlmə ehtimalı mövcuddur. Kəndlərin bir neçəsi anklav şəraitindədir, Ermənistan sərhədindən keçmək lazım gəlir. Əsas təhlükəsizlik məsələsidir. Azad etməyə qalsa, bir neçə günə həllini tapması mümkündür. Prezident İlham Əliyev Ermənistana sülh təklif etdi. Sülhün şərtlərindən biri sərhədlərin müəyyənləşməsidir. Məncə, bu səbəbdən Qazaxın kəndləri məsələsi aktuallaşmır. Bir var kəndbəkənd azadlığına qovuşsun, biri də var ki, Ermənistan sülh müqaviləsini imzalayaraq şərtsiz ərazilərdən geri çəkilsin".

Aygün

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması

Koronavirusa yoluxma saynda, həmçinin ölüm hallarında nəzərəçarpan azalma, aktiv xəstələrin də əksəriyyətinin sağalması, stasionar müalicəni ambulator müalicənin əvəz etməsi, pandemiyanın "sönməyə" doğru getdiyini göstərir. Əlbəttə, bu, sevindirici haldır, müsbət tendensiyadır.

Müsbət olan həm də budur ki, Azərbaycan koronavirus pandemiyasından daha az zərər çəkən ölkələrdən biridir. Təbii ki, bu məsələdə hökumətin operativ addımları, dövlət səviyyəsində vacib məsələlərin həlli də müsbət təsirini göstərdi. Bununla belə amansız virus vətəndaşlarımızın həyatında, taleyində sağalmaz yaralar qoydu. Valideynlərin itirilməsi, dəyərli ziyalılarımızdan bir neçəsinin vəfatı, gənclərimizin həyatla vidalaşması ailələrə böyük faciələr, kədər yaşatdı. Daha çox hiss olunansa uşaqların valideynlərini itirməsi oldu. Valideyn, hansı yaşda olursa-olsun, həmişə valideyndir, bu, şəksizdir. Lakin bir var yetişki insanın ata və ya anasını itirməsi, bir də var yetkinlik yaşına çatmamış, hətta azyaşlının valideynsiz qalması. Azyaşlılar, yetkinlik yaşına çatmayanlar bu itkini daha ağır keçirir. Hazırkı statistikada Azərbaycanda koronavirusdan vəfat edənlərin sayının 9500-dən artıq olduğu qeyd edilir. Yoluxanların yaş kateqoriyasına gəlincə, 2021-ci ildə yoluxmaların 3 faizi 0-9 yaş, 8 faizi 10-19 yaş, 15 faizi 20-29 yaş, 22 faizi 30-39 yaş, 15 faizi 40-49 yaş, 16 faizi 50-59 yaş, 14 faizi 60-69 yaş, 5 faizi 70-79 yaş aralığında, 2 faizi 80 yaşdan yuxarı insanlardır. Orta hesabla daha çox orta yaş qrupu arasında yoluxma sayı yüksək olub. Məntiqlə bu da ölüm hallarının məhz orta yaş qrupuna aid insanlar arasında olduğunu söyləməyə əsas verir. Bu isə həm də o deməkdir ki, uşaqlar, yeniyetmələr arasında valideynini itirənlər olub. ABŞ-da bununla bağlı tədqiqat aparılıb. Tədqiqatlar dünyada 5 milyon 200 min uşağın koronavirus səbəbiylə valideynini itirdiyi reallığını ortaya qoyub. ABŞ-ın Kaliforniya Los-Anceles Univeristetinin uşaq reanimasiya şöbəsinin həkimi, professor Yonca Bulut xarici mediaya açıqlamasında son 2 ildə "Covid yetimi" ifadəsinin ortaya çıxdığını təəssüflə qeyd edib:

"Covid yetimi" Azərbaycanda da var

Fərqanə Mehmanqızı: "Psixoloji yardımdan əlavə valideynini itirmiş uşaqların həm də sosial dəstəyə ehtiyacı var"

- Təəssüf ki, "Covid" səbəbindən yetim qalmış uşaqlar haqqında "Covid yetimi" ifadəsi formalaşdı. Koronavirus bütöv nəsilləri təsiri altına aldı. "Covid", xüsusilə Amerikadakı sosial yaraları daha artıq göz önünə gətirdi. Onsuz da sosial sistem düz-əməlli deyildi, "Covid" səbəbiyləsə tamam çökdü. ABŞ-da 200 mindən çox uşaq ən azı valideynlərindən birini itirdi. Hər 4 yetişkin insanın ölümü bir uşağı yetim qoydu. Dünyada isə "Covid yetimləri"nin sayı 5.2 milyona çatıb. Bir çox ölkələrdə məlum testlərin aparılmadığı nəzərə alınarsa, rəqəmin daha böyük olduğunu söyləyə bilərik. 2 ildir həyatımızdan heç cür çıxıb getməyən "Covid" üzündən ana-atasını itirən uşaqlar yoxsulluq və ruhi sarsıntıyla qarşı-qarşıyadır. Koronavirus bütöv bir nəslin həyatını alt-üst edib. Məktəblər bağlanıb, insanlar bir-biriylə ünsiyyətdən uzaqlaşıb, ailələr dağılıb. "Paralel pandemiya dediyimiz durum ortadadır. Ruhi sarsıntı keçirən, sosial problemlər yaşayan uşaqların sayı sürətlə artır. Xüsusilə də sosial-iqtisadi durumu aşağı səviyyədə olan uşaqlar çətinlik çəkir. Bu vəziyyət uşaqlar arasındakı ayrı-seçkiliyi daha da dərinləşdirir.

Problemlə bağlı "Şərq"ə açıqlama verən psixoloq Fərqanə Mehmanqızı qeyd etdi ki, valideynini itirmiş uşaqlara mütləq psixoloji yardım göstərilməlidir:

- Valideyn itkisi həmişə uşaqlara mənfi təsir göstərir. Uşağın bu itkiyə reaksiyası xarakterindən asılıdır. Bəzən uşaqlar valideyn itkisini səssiz faciə kimi yaşayır, susqun olur, danışmır, həyatdan küsür, qohum-əqrəbadan soyuyur, hətta yaşıdlarından da uzaqlaşır, tənhalığa çəkilir. Valideynini itirən uşaq özünü yarımçıq hiss edir. Qanadları qırılır sanki. Ata-anası olan həmyaşıdlarına həsəd aparır. Bəzisi aqressivləşir. İstənilən halda bu, təhlükəli vəziyyətdir. Çünki uşaq özünə qapandıqda gözlənilməz davranışlar sərgiləyə bilər. Zərərli vərdişlərə qurşana bilər. Əvvəllər ailələr böyük idi, ata və ya ana vəfat etdikdə, uşaqlar nənənin, babanın, əmi-dayı, xala-bibi və sair yaxın qohumların himayəsində olurdu. Onlar uşaqlara qulluq göstərirdi, nəzarət edirdilər. Nəzərə alsaq ki, son illərdə ailələrdə kiçilmə prosesi gedir, yeni evlənənlər qayınana-qayınatadan ayrı qalmağı üstün tutur, uşaqların babanənəylə, qohum-əqrəbalarla əlaqəsi demək olar, sıfırdır, bir çox ailələr yalnız ata, ana, 1, uzaqbaşı 2 övladdan ibarətdir, ailədə hansısa faciə baş verdikdə, təskinlik edəcək üçüncü şəxs tapılmır. Varsa da, uşaqların onlarla mənəvi bağı zəifdir deyə, özlərini tənha, kimsəsiz hiss edirlər. Bu reallıqlar nəzərə alınmaqla pandemiyadan zərər çəkmiş uşaqlara mütləq psixoloji yardım göstərilməlidir. Bunu ailənin digər üzvləri, məktəb, bağça (uşağın yaşından asılı olaraq) həyata keçirməlidir. Pandemiya təkcə xəstəlik deyil, bu həm də fiziki və psixoloji gərginlik yaradan amildir. Uşaqlar, yeniyetmələr arasında depressiya halları da bu səbəbdən artır. Psixoloji yardımdan əlavə valideynini itirmiş uşaqların həm də sosial dəstəyə ehtiyacı var. Məsələn, belə uşaqların təhsil xərclərinin, sosial ehtiyaclarının qarşılanması, onların aktiv sosial həyata adaptasiyasıyla bağlı zəruri işlər aparılmalıdır.

Məlahət Rzayeva

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

Azərbaycanda əmək bazarının 70 faizi formaldır

İnsanların əməyi istismar olunur, onlara nəinki bayram günləri, heç şənbə və bazar günləri də istirahət verilmir

"Ekspertin sözlərinə görə, bizdə kölgə iqtisadiyyatının faiz göstəricisi yüksək olduğuna görə, qeyri-iş günündə ölkə iqtisadiyyatının nə qədər itirdiyini hesablamaq çox çətindir"

Azərbaycanda qeyri-iş günlərinin sayının digər ölkələrlə müqayisədə təxminən iki dəfəyədək çox olması ölkə iqtisadiyyatına mənfi təsir edir. Çünki azad iqtisadiyyatda bayram günlərinin sayının çox olması dolayı yolla istehlakçının cibinə ziyan vurur, malların qiyməti qalxır. Ekspertlərin hesablamalarına görə, bayram günlərində evdə oturduğumuz üçün bir məhsula əvvəlki ilə müqayisədə daha artıq pul xərcləmiş oluruq.

Qeyd edək ki, Azərbaycanda qeyri-iş günlərinin sayı 20, seçki ilində isə 21 gün müəyyənləşməsi daim fəaliyyətdə olması vacib sektorlarda xərclərin artmasına gətirib çıxarmır, eyni zamanda nəticə olaraq, satış qiymətlərində təsirini göstərir.

UNESCO-nun araşdırmalarına əsasən dünyada ortalama qeyri-iş günlərinin illik 12 gün civarında olduğunu vurğulayan İnsan resursları üzrə mütəxəssis Saleh Həsənov çox az ölkələrdə bayram günlərinin sayının Azərbaycandakı qədər olduğunu deyib.

Mütəxəssis iqtisadi təsirləri nəzərə alaraq qeyri-iş günlərinin sayının azaldılmasının tərəfdarıdır. O qeyd edir ki, ölkəmizdə qeyri-iş günləri mövzusuna yenidən baxılmalı və bu mövzu təkcə sahibkarların deyil, həm də vətəndaşların xeyrinə olsun deyə tənzimlənməlidir.

Mövzuya toxunan millət vəkili Fazil Mustafa da hesab edir ki, vəziyyət dünya standartlarına uyğunlaşdırılmalı, hərtərəfli maraqlar nəzərə alınmalıdır: "Sahibkarların müəyyən maraqları nəzərə alınmalıdır ki, o, işçini işə götürməyə maraqlı olsun. O cümlədən vətəndaşların da istirahət hüquqları nəzərə alınmalıdır. Elə yerlər var ki, işçiləri şənbə günləri də işlədirlər. Restoran, şadlıq evləri, başqa bizneslərdə səhərdən axşam yeddiyədək çalışırlar. Bu işçilərin də istirahət hüququ təmin olunmalıdır. Təbii ki, bütün bunlar üçün konkret tədqiqatlar aparılmalı və bir iş ortaya qoyulmalıdır".

Əmək Hüquqları Müdafiə Liqasının sədri, hüquq müdafiəçisi Sahib Məmmədov isə "Şərq"ə açıqlamasında məsələyə fərqli baxış sərgiləyib: "Ölkəmizdə bayram günlərinin sayı artıq olsa da həmin günləri iş başında keçirənlər də çox olur. Dövlət sektoru və xidmət sahələrində çalışan insanlar bayramlar günlərinin hamısını evdə otursalar da, elə sahələr var ki, bu tətil onlara aid edilmir. Özəl şirkətlərin bir çoxunda qeyd olunan istirahət günlərində belə insanlar əməyə cəlb olunur. Fasiləsiz istehsalatlar, ticarət, ictimai iaşə, rabitə, nəqliyyat və digər xidmət müəssisələrinin işçiləri qeyri-iş günlərində işə cəlb edilir. Hətta 21 günlük tətil bəzi əhəmiyyətli dövlət qurumlarının əməkdaşlarına da aid edilmir. Yeri gəlmişkən bu da insanlar arasında narazılıq yaradan səbəblərdən biridir".

Bayram günlərində ölkə iqtisadiyyatının itki verməsi ilə bağlı iddialara gəldikdə isə S.Məmmədov əmək bazarının 70 faizinin qeyri-formal olduğunu deyib. Bu cür sahələrdə isə insanların əməyi istismar olunur. Onlara nəinki bayram günləri, heç şənbə və bazar günləri də istirahət verilmir: İşçilər gündəlik iş saatından artıq və istirahətsiz çalışdırılır, əlavə iş saatlarına görə ödəniş edilmir. Ekspertin sözlərinə görə, bizdə kölgə iqtisadiyyatının faiz göstəricisi yüksək olduğuna görə, qeyri-iş günündə ölkə iqtisadiyyatının nə qədər itirdiyini hesablamaq çox çətindir: "Hətta ölkənin ən güclü iqtisadçıları belə dəqiq məbləğ hesablaya bilməz. Başqa ölkələrdə bunu hesablaya bilərlər, çünki onlarda kölgə iqtisadiyyatı əmək bazarının cüzi bir hissəsini əhatə edir. Bizdə isə kölgə iqtisadiyyatının həcmi 52 faizdən çoxdur".

Dünya standartlarına gəldikdə isə S.Məmmədov Azərbaycanda qeyri-iş günlərinin sayının bir çox ölkələrlə müqayisədə həddindən artıq çox olması iddiası ilə razılaşmır. Onun sözlərinə görə, bizə qonşu olan Rusiyada yeni ildə 10 gündən çox qeyri-iş günü hesab olunur: "Digər region ölkələrində də bayram günlərinin sayı kifayət qədərdir. Avropanın bir çox ölkələrində, hətta Çinin özündə belə bu cür uzunmüddətli tətillər var. Ola bilər ki, hansısa ölkələrdə bizdən 2 dəfə az olsun. Belə ölkələrdə qeyri-formal əmək bazarının həcmi də ölkəmizlə müqayisədə böyükdür".

Məlumat üçün bildirək k, Şri-Lankada 25, Hindistan və Qazaxıstanda 21, Kolumbiya, Filippində, Çin və Honq-Konqda 17, Tayland, Türkiyə və Pakistanda 16, Yaponiya, Malayziya, Argentina, İsveçdə 15, İndoneziya, Çili, Slovakiyada 14, Cənubi Koreya, Avstriya, Belçika, Norveç, Tayvan, Nepalda 13, Finlandiya, Rusiyada 12, Sinqapur, İtaliya, Danimarka, Fransa, Mərakeş, Çexiya və Lüksemburqda isə bu müddət 11 gün qeyri-iş günüdür.

Şəymən

Polietilenlə "torba tikənlər" həyatımıza zəhər qatır

Eyyub Hüseynov: "Kağız torbaların istehsalına başlanılmalıdır"

Yanvarın 1-dən qalınlığı 15 mikrona qədər olan polietilen torbaların ictimai iaşə və xidmət obyektlərində istehlakçıya satılması və verilməsi qadağan edilib.

"Report" xəbər verir ki, bununla bağlı "Ətraf mühitin mühafizəsi haqqında" qanuna edilmiş dəyişikliklər qüvvəyə minib.

Sənəd ölkə Prezidentinin 2019-cu il 7 fevral tarixli "Azərbaycanda plastik qablaşdırma tullantılarının ətraf mühitə təsirinin azaldılmasına dair 2019-2020-ci illər üçün Tədbirlər Planı"na əsasən hazırlanıb.

Qalınlığı az olan plastik torbalar çürüməyə qarşı davamlı olduğu üçün təbiətin çirklənməsində daha böyük rol oynayır. Sənədə əsasən qalınlığı 15 mikrona qədər olan polietilen torbaların, habelə birdəfəlik istifadə üçün nəzərdə tutulan plastik qarışdırıcı çubuq, çəngəl, bıçaq, boşqab və stəkanların sahibkarlar tərəfindən idxalı, istehsalı, ticarət, ictimai iaşə və xidmət obyektlərində istehlakçıya satılması və verilməsi qadağan edilib.

"Ən yaxşı variant öz yanımızda hazırlanan həsir zənbillər ola bilər. Dünyanın ən ekoloji torbasıdır"

Qanun birdəfəlik istifadə üçün nəzərdə tutulan məhsullara münasibətdə isə 2021-ci il iyulun 1-dən qüvvəyə minir.

Qeyd edək ki, polietilen torbalar uzun müddətdir, qadağan olunub. Ancaq marketlərdə bunun hələ də istifadə edilməsi müşahidə olunur.

Polietilen torbaların zərərindən "Şərq"ə danışan Azad İstehlakçılar Birliyinin sədri (AİB) Eyyub Hüseynov hökumətin çoxsaylı tapşırıqları olduğunu vurğulayıb:

"Hətta cənab Prezident İlham Əliyev səviyyəsində insanların sağlamlığı üçün qərarlar mövcuddur. Təəssüflər olsun ki, ardıcıl yerinə yetirilmir. "Tütün və tütün məmulatları haqqında" qanunu misal göstərə bilərəm. Neçə dəfə dəyişiklik olub. Daha da ciddiləşdirilib. Lakin görürük ki, sağlamlıq müəssisələrinin yanında siqaret satılır. Bizi az ölkələrdə marketlərə girən zaman siqaret reklamları qarşılayır. Ətrafın çirkləndirilməsinin qarşısını almaq üçün hökumət səviyyəsində məsələlər qaldırılıb. Nəticəsi uğurlu olmayıb".

Təşkilat sədri bildirib ki, 2009-cu ildə Azad İstehlakçılar Birliyi mühitin polietilen torbalarla kirlədilməsinə dair layihə yaradıb:

"Şəhərin Nizami küçəsində böyük küçə nümayişi keçirilib. Həmin torbaları böyük telə taxmışdıq. Dövlət orqanlarına, bu cür torba istehsal edən müəssisələrə təzyiqlər göstərdik. Ancaq nə istehlakçıların davranışı dəyişir, nə də biznes qurulur.

AİB yalnız onu həyata keçirə bilib ki, Prezident yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə yardımından 500-ə qədər ekoloji cəhətdən təmiz ev və bazar torbaları hazırlayıb. Təmənnasız şəkildə istehlakçılara paylayıb. Həddindən artıq məmnuniyyətlə qarşılayıblar. İndi də bu torbalardan istifadə edirlər".

E.Hüseynov çıxış yolu göstərib ki, dövlət qərar verəndə gərək fərqli yollar tərtib etsin:

"Təəssüf ki, alternativlər yoxdur. Kağız torbaların istehsalına başlanılmalıdır. Ən yaxşı variant öz yanımızda hazırlanan həsir zənbillər ola bilər. Dünyanın ən ekoloji torbasıdır. Ailə başçısının, kralların, baş nazirlərin, öz ailəsi və xalqı üçün çox yaxşı niyyətləri ola bilər. Lakin ailə üzvləri tərəfindən dəstəklənməsə, hərə bir şey deyərsə, onda bu, xəyal plovu olaraq həmin rəsmilərin beynində qalar. Nə yazıq ki, istehlakçıların və bunu yerinə yetirən dövlət orqanlarının davranışı, ardıcıllığı müşahidə edilmir".

Cəmilə Əzim

Koronavirus dövründə vərəmli xəstələrin sayı azalıb

Mərdan Əliyev: "Əsas səbəb qoruyucu vasitələrdən istifadə etmək olub"

Paytaxtda Yaponiya-Azərbaycan Dostluq ili - 2022 kontekstində Ümumdünya Vərəmlə Mübarizə Gününə həsr olunmuş beynəlxalq konfrans keçirilib. Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutunun direktoru Həqiqət Qədirova bildirib ki, ötən il 658 nəfərdə dərmana davamlı vərəm aşkar edilib. Dərmana davamlı vərəm xəstələrindən 964 nəfəri müalicəyə qoşulub. İnstitut direktoru qeyd edib ki, vərəm xəstələri arasında kişilər üstünlük təşkil edir:

"Yaş aralığında baxdıqda isə yoluxanların əsasən 18-24 yaş arasında olduğunu görmək olar. 2020-ci ildə 430 nəfər vərəmdən vəfat edib. Azərbaycanda hazırda təxminən 5 minə yaxın vərəmli xəstə var. Ötən il 1467 nəfərdə ilkin ağciyər xəstəliyi aşkar edilib: "BMT-nin vərəmlə bağlı siyasi bəyannaməsi var. Onlardan biri bu idi ki, beş il ərzində 40 milyon xəstənin müalicəsi təmin edilməli idi. Vərəmlə mübarizəyə ayrılan vəsait ildə 16 milyon dollara çatdırılmalı idi. Lakin COVID-19 pandemiyası vərəmlə mübarizə tədbirlərinə mənfi təsir edib. COVID-19 pandemiyası dövründə Azərbaycanda vərəmin aşkarlanması sayı aşağı düşüb. Bu da COVID-19 pandemiyası ilə bağlı idi".

2021-ci ildə cəzaçəkmə müəssisələrində vərəmdən ölüm faizi 1995-ci illə müqayisədə 141 dəfə azalıb. Bu barədə Ədliyyə Nazirliyinin Tibb baş idarəsinin rəisi Rəfail Mehdiyev danışıb. R.Mehdiyev onu da bildirib ki, vərəm hallarının sayı, o cümlədən, "açıq formalı və ÇDD formalı vərəm hallarının sayı kəskin azalıb. 2021-ci ildə bütün vərəm hallarının sayı 2011-ci illə müqayisədə 3,7 dəfə azalıb. R.Mehdiyev qeyd edib ki, cəzaçəkmə müəssisələrində vərəmlə mübarizə mərkəzləşmiş mübarizə modeli əsasında qurulub: "Vərəmin aşkarlanması daha erkən baş tutsa, mübarizə də daha effektiv olur. Şəxslər cəzaçəkmə müəssisələrindən azadlığa buraxılandan sonra da vərəmlə mübarizə tədbirləri davam etdirilir. Keçmiş məhbusların sonrakı dövrdə müalicəsi xüsusi əhəmiyyət daşıyır. Yaponiya istehsalı və vərəmin müalicəsində effektiv rola malik tibbi cihaz bizim də diqqətimizi çəkir". Konfransda iştirak edən ÜST-nin Azərbaycan üzrə Nümayəndəliyinin rəhbəri Hande Harmancı isə bildirib ki, vərəm artıq texniki məsələ deyil: "Koronavirus pandemiyası dövründə vərəmlə yoluxma sayında nəzərəçarpacaq dərəcədə azalma qeydə alındı. Vərəm artıq texniki problem deyil, onun müalicə edilməsi üçün müayinə imkanları var. "COVID"lə mübarizədə biz peyvəndlər və dərmanlar hazırlamalıydıqsa, vərəmin müalicəsi üçün peyvənd və dərmanlar baxımından da bütün imkanlarımız var. COVID-lə mübarizədən fərqli olaraq vərəmi nəzarətdə saxlamaq mümkündür. Yalnız əməkdaşlıq etməliyik və diqqəti artırmalıyıq. İnnovasiya gələcəyin inkişaf açarıdır və ancaq bu şəkildə irəliləyə bilərik. Azərbaycanda bu sahədə mövcud qanunvericiliyin mütəmadi şəkildə nəzərdən keçirilməsi yaxşı haldır. Biz Azərbaycanda vərəmə nəzarət sahəsində görülən işləri və vərəmlə bağlı qanunvericiliyi yenidən nəzərdən keçirməyə hazırıq.

Səhiyyə nazirinin müavini Nadir Zeynalov qeyd edib ki, son 15 ildə ölkədə vərəmlə mübarizə çərçivəsində bir çox müsbət addımlar atılıb. Əvvəlki illərin statistikası ilə müqayisədə hazırda Azərbaycanda vərəmin rastgəlmə tezliyi və ölüm göstəricisi əhəmiyyətli dərəcədə azalıb. Nazir müavini qeyd edib ki, vərəmin müalicəsi ilə bağlı aidiyyəti qurumlar birlikdə fəaliyyət göstərməlidir. Vərəmə qalib gəlmək üçün təkbaşına vuruşmaq heç bir nəticə verməyəcək.

Koronavirus pandemiyası dövründə vərəmlə yoluxma sayında nəzərəçarpacaq dərəcədə azalma ilə bağlı "Şərq"ə danışan həkim-infeksionist Mərdan Əliyev qeyd etdi ki, bunun bir neçə səbəbi ola bilər:

- Hesab edirəm ki, vərəmlə yoluxmada azalmanın müşahidə edilməsi pandemiya dövründə tətbiq edilən qorumalarla bağlıdır. Məlumdur ki, vərəmə hava-damcı yoluyla, yoluxmuş insanlarla yaxın təmas nəticəsində də yoluxurlar. Pandemiyada insanlar tibbi maskalardan, müxtəlif qoruyucu vasitələrdən geniş istifadə etdiklərindən yoluxma sayında azalma olması ehtimalı böyükdür. Həmçinin pandemiya dövründə insanlar daha çox koronavirusa diqqət ayırdı, koronavirusdan test verdilər, müalicə olunmağa üstünlük verdilər. Belə şəraitdə digər xəstəliklər istər-istəməz ikinci plana keçir, insanlar daha çox təhlükə gördükləri xəstəliklərə diqqət ayırırlar. Vərəmlə yoluxma sayındakı azalma bununla da bağlı ola bilər. Amma yenə də hesab edirəm ki, əsas səbəb qoruyucu vasitələrdən istifadə etmək olub.

Məlahət Rzayeva

"Sözümün vətən qoxusu"

Fazil Atəşin bu yaxınlarda şeirlər kitabı işıq üzü görüb

İLTİMAS SƏMİMİ

Çağdaş poeziyamızda tanıdığım imzalardan biri də Fazil Atəşdir. Ən çox vətənpərvər şeirlərilə diqqətimi özünə cəlb edən şair, yaddaşıma poetik misralarıyla həkk olunub. Fazil Atəş poeziyaya gənc yaşlarından böyük həvəs göstərib, mütəmadi olaraq ədəbi -bədii yaradıcılıqla məşğuldur.

Şeirləri "Yurd" jurnalarda, qəzetlərdə və almanaxlarda çap olunub. Bir neçə kitabın müəllifidir.

Fazil Atəşin bu yaxınlarda "Sözümün vətən qoxusu" şeirlər kitabı işıq üzü görüb. Bu kitabda müəllifin son dövrdə qələmə aldığı şeirlər, qəzəllər və bir poema yer alıb.

Kitabda yer alan birinci poetik nümunə "Qarabağım" şeiridir. Bu şeirdə bir -birindən dəyərli misralar kərpiç -kərpiç hörülmüş divarə bənzəyir.

Könül bağım,
Tarix bağım,
İlk sorağım,
Qarabağım.

Və yaxud; İndi səni gözləyən var,
Bülbüləri səsləyən var.
Səndən ötrü ağlayan var,
Solum, sağım,
Qarabağım.
İllər ilə necə dözdüm,
Həsrətinə şeir yazdım,
Həm yaxınım, həm uzağım,
Uşaqlığım, həm oylağım,
Qarabağım!!!

Şair öz dolğun misralarıyla elə bil oxucunu yaxın da keçmişə aparır. 44 günlük müharibədən əvvəl, ürəyimizi köz -köz yandıran yurd nisgili, Qarabağ həsrəti xatırlanır. Əlbəttə, artıq keçmişdə qalan 30 illik Qarabağ həsrəti, Xocalı ağrısı, yurd nisgili və şəhid anaların acı göz yaşları yaddaşlardan silinməz.

Fazil Atəş bir vətəndaş şairi olaraq, təbii ki, bu mövzulardan, xalqımızın icdimai və siyasi həyatında baş vermiş hadislərdən kənarda qala bilməz. O, qələmə aldığı yeni şeirdə öz poetik fikirləri ilə vətənə, torpağa olan borcunu yerinə yetirir.

Müəllifin "Xəritəm" adlı şeiri oxuduqda bir anlıq gözümün önünə klassik Azərbaycan xəritəsi gəlir. Dərbənddən Həmadanacan yurd yeri, əsrlər boyu soydaşlarımızın yaşadığı vətən, ulu əcdadlarımızın uyuduğu məkan.

Azərbaycan başdan -başa mənimdir,
Çox cızıldı, çox dəyişdi xəritəm.
Xan Arazım bölüb məni ikiyə,
Rezin kimi bir qayışdır xəritəm.

Sonu birdir bir olacaq torpağım,
Bir ağacda yetişəcək yarpağım,
Buna misal Qarabağım can bağım,
Bitişəcək böyük işdi xəritəm.

Bir tərəfim Zəngəzurdur, Vedidi,
Bir tərəfdən Dərbənd qala yeridi,
Bir tərəfdən Urmiyanın gölüdü,
İnsanların göz yaşıdı xəritəm.

Fazil Atəşin bir şair kimi poetik təfəkkürü, düşüncəsi tarixin yaddaşıdır. Ümumiyyətlə, mənim fikrimcə vətənpərvərik mövzusunda ən çox şeir yazan şairlərin içində bir nisgil, sağalmayan ağrı var. Harayı, hayqırtısı bir -birinə oxşar olur. Məhəmmədhüseyn Şəhriyar harayı, Məmməd Araz ağrısı, Bəxtiyar Vahabzadə kədəri, Xəlil Rza Ulutürkün hayqırtısı buna ən böyük nümünədir.

Fazil Atəşin şeirlərin oxuduqca Azərbaycan tarixində baş verən ağrılı, acılı hadislər xəyalımdan keçir.

Şairin bu kitabda şəhidlərimizə həsr etdiyi bir neçə şeiri var. Təbii ki, bir -birindən dəyərli bədii fikirlərlə gözəldir. " Bitər" şeiri xüsusilə fərqlidir.

Şəhid qanı düşsə yerə,
Toxumundən vətən bitər.
Ziyarətim and yerimdir,
Şəhid adlı güldən bitər.

Şəhidlərim ölmədiniz,
Çiçək kimi solmadınız.
Bu xoş günü görmədiniz,
Yuxunuzda cənnət bitər.

Yetişcək nəsil -nəsil,
Yadımdasız fəsil -fəsil.
Tarix yazan sizsiz əsil,
Tarix yazar zillət bitər.

Fazil Atəşin ana haqqında yazdığı şeirləri, əlbəttə, çox mənalı və düşündürücüdür.

Bu şeirlərdən söz açmamaq və üstündən keçmək mümkün deyil. Hər bir insanın bir ana dünyası var. Öz anasına və bütün analara olan sevgisi, ehtiramı səmimidir. Elə bir şair olmaz ki, ana haqqında şeiri olmasın.Təbii ki, hər ürəkdə özünəməxsus hiss, duyğu var.

Elə gözəl bir neymət de,
Şirin ola ana kimi,
Sevgi kimi dərya göstər,
Dərin ola ana kimi.

O cənnətdir müqəddəsdir,
Övlad üçün o nəfəsdir,
Həm ayətdir, həm hədisdir,
Ana varmı ana kimi?

Digər şeirdə;
Ana səni çox gözlədim,
Dolanmadın mənə tərəf.
Sən gəlmədin özüm gəldim,
Soyuq məzarına tərəf.

Əlbəttə, diqqətimi özünə cəlb edən, həsas olduğum bu müqəddəs mövzu xəyalımda köz -köz közərir. Qələm adamları nə qədər ana haqqında romanlar belə yazsalarda yenə azdır. Axı uca Yaradanın yaratdığı cənnət anaların ayağın altındadır. Buda əzəli və əbədi olan Allahın anaya ən böyük mükafatı. "Qurani -Kərim" də və oxuduğumuz digər kitablarda da ananın məqamı çox yüksəkdir.

Şair Fazil Atəşin qəzəlləri də çox müasir və özünəməxsusdur. Qəzəlində işlətdiyi poetik fikirlər və təmiz ana dilimizdə olan bu qəzəllərdə heç bir dilmizə yatmayan yad kəlmələr, alınma sözlər yoxdur. Bu da şairin istedadından və yeniliyə meyilli olmağından irəli gəlir.Təbii ki, hər sahədə inkişaf getdikcə, ədəbiyyatda da istər ərzuz, istər heca, istərsə də sərbəst şeirdə yeniliklər, yeni düşüncə, yeni

fikir və yeni təfəkkür mütləqdir.

Müəllifin qələmə aldığı digər şeirləri də düşündürücüdür. Bir də bu kitabda yer alan "Övlad" poeması maraqlıdır. Ənənəvi üslubdə yazılan bu poema çox hikmətlidir.

Poemada atanın, ananın illərcə övlad həsrəti çəkməsi, sonra bir oğlan uşağı dünyaya gəlməsi, o uşağı ərküyün böyütməsi, valeydinlərin övladlarını düzgün tərbiyələndirməsindən söz açır.

Böyük filosof Nəsrəddin Tüsinin qələmə aldığı məşhur "Əxlaqi - Nasiri" əsərində valydeynlər övladlarını necə tərbiyə etməsindən çox gözəl söz açıb. Övladı nə çox ərküyün nə də çox sıxrmaq olmaz. Xüsusilə, valeydinlər həddi buluğa çatmış övladlarla çox ehtiyala davramalı və kənardan nəzrət etməlidilər. Üstünə çox getsələr uşağı özündən çıxarmaqla nətincələnər. Bunun da günahkarı yenə valideynlərdir. Əlbəttə, hər bir uşaq dostları kimi qayğısız, rahat hərəkət etmək istəyir. Valideyiyin övladının bu ehtiyaclarını hamsını ödəməlidir.

Şair Fazil Atəş həm də Birinci Qarabağ müharibəsinin iştirakçısıdır. Tanıdığım Fazil Atəş həm şair, həm də bir şəxsiyyət kimi dəyərlidir.

Dəyərli ziyalı, səmimi şair Fazil müəllimin "Sözümün vətən qoxusu" şeirlər kitabının oxucular tərəfindən daima həvəslə qarşılanacağına əminəm.

Gözəl şairimizə can sağlığı və yaradıcılıq uğurları arzulayıram.

İstanbulda klip çəkiləcək

Röya Rüfət Axundovla Türkiyəyə gedib

Xalq artisti Röya Ayxan Türkiyəyə yola düşüb.

"Şərq"in məlumatın görə, pop ulduz bu dəfə həmkarı Rüfət Axundovla səfərə yollanıb. Buna səbəb məşhur müğənnin in R.Axundovla ifa etdiyi "Nə badə" duetini (sözləri Orxan Mürvətli, musiqisi Fərid Kərimli) ekranlaşdırmaq istəyidir. R.Ayxan klip üçün seçimini yenə rejissor Müjdat Küpşidən yana edib.

M.Küpşi bundan əvvəl Röyanın "Xəyanət" , "Mən sənsiz", "Sənə ehtiyacım var" , "Unutmaq lazımdır" kimi layihələrini lentə alıb . Klipin çəkilişləri İstanbulda baş tutacaq və bir neçə gün davam edəcək. Röya uzaq səfərləri sevmədiyi üçün klip çəkilişləri zamanı orada qalmağı planlaşdırır.

Qeyd edək ki , M.Küpşi müğənni Demet Akalın, Aslı Hünel kimi tanınmış simaların kliplərini lentə alıb.

Aygün Tahir

Elan

BPLUS GO MMC şirkətinə məxsus VÖEN 2006523211 itdiyi üçün etibarsız sayılır.

FHN Nəsimi rayon Yanğından Mühafizə Hissəsi tərəfindən Əmrahlı Aqşin Sehraman oğluna verilmiş xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.

Vəli Səmədli, Sultan Quliyev, Əmir Şahbuzlu, Piriş Qaraoğlu, Aydın Xanəliyev Bakı şəhərində yaşayan Elyaz Xəlilova atası
Eldar Xəlilovun
vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.
Allah rəhmət eləsin!

Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu
KURSLAR
-MÜHASİBAT (2 AY)
-Mobil telefonların təmiri (3 ay)
-KOMPYUTER (1-3 AY)
-KOSMETOLOGİYA və **VİZAj** (3 AY)
-KİŞİ və **QADIN BƏRBƏRİ** (1-3 ay)
-Dizayn (3-6ay)
-Masaj (3 ay)
-Biçmə - Tikiş (3 ay)
-Məktəb Psixologiyası (12 ay)
Tel: (012) 489-08-84
Mob: (070) 241-28-67
www.az-baku.com

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, Nailə Cabarova, İlahə İbrahimova, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 857



"Parkda işləmək həyatıma məna qatdı"

90 yaşında işə başladı, 100 yaşında təqaüdə çıxdı

ABŞ-da qəribə hadisə baş verib.

"Şərq" "NTV.com.tr"yə istinadən xəbər verir ki, Kaliforniya ştatında Milli Parkda mühafizəçi işləyən 100 yaşlı Betti Reid Soskin təqaüdə göndərilib. Maraqlı olan budur ki, Betti mühafizəçi vəzifəsində cəmi 10 il əvvəl çalışmağa başlayıb. 90 yaşında işə qəbul olunub, 10 il sonra - 100 yaşında isə təqaüdə göndərilib. Kaliforniyadakı bu park mülki əhalinin II Dünya müharibəsindəki çalışmaları və təcrübələrini gənc nəslə çatdırmaq məqsədi daşıyır. Parkda işə düzələn Betti də parkın ziyarətçilərinə müharibə dövründə qazandığı təcrübədən, insanların yaşadığı faciələrdən, həmçinin öz həyatından da bəhs edirmiş. 100 yaşlı qadın "parkda işləmək ahıl yaşımda həyatıma məna qatdı"- deyib. Park müdürlüyü Bettiyə təşəkkür edib və ona təqaüdçü həyatında hüzur diləyib.

Məlahət

Zelenskinin bağ evini qarət etdilər

Rus hərbçilər evdəki bütün mebelləri aparıblar

Rusiya hərbçiləri Ukrayna prezidenti Volodimir Zelenskinin Kirilivka bölgəsindəki Biryuçi adasında yerləşən bağ evini qarət ediblər.

Lent.az xəbər verir ki, bu barədə "RİA-Melitopol"a yerli sakinlər məlumat verib. Məlumata görə, hərbçilər evdəki bütün mebelləri aparıblar. Daha sonra isə ətrafda olan istirahət mərkəzlərinə hücum ediblər.

Qeyd edək ki, iki zirehli texnika Zelenskinin bağ evində qalıb, üçü isə sərhəd zastavasına gedib.

Ajda Pekkan heç vaxt metroya minməyib

"İstanbulu ürəyim istədiyi kimi gəzmək istəyirəm, amma alınmır".

"Qafqazinfo" xəbər verir ki, bu sözləri türkiyəli populduz Ajda Pekkan deyib.

Müğənni məşhurluğu səbəbindən heç vaxt metroya minmədiyini etiraf edib: "Məsələn, Kapalıçarşını, Tahtakaleni, Perşembe bazarını və ya Galatanı gəzmək istəyirəm, amma uzun illərdir buralara getmirəm. Metrobus, İDO-ya (İstanbul dəniz avtobusu-red.) heç minməmişəm, çox maraqlı gəlir. Metroya da heç minməmişəm. Paroxoda da çox istəyirəm minim. Atam dəniz qüvvələrində polkovnik idi, uşaqlığımda onunla minirdik. O günləri hələ də xatırlayıram".

Farah "Bergen"dən 40 milyon qazanıb?

Türkiyəli aktrisa Farah Zeynəb Abdullah "Bergen" filmindən 40 milyon lirə qazanmasıyla bağlı xəbərlərə münasibət bildirib.

Axşam.az Türkiyə mətbuatına istinadən xəbər verir ki, aktrisa sosial şəbəkədə paylaşım edərək məlumatın yalan olduğunu yazıb: "Haqqımda yenə səfeh xəbər çıxıb. Ayıbdır. Bunu yazan, vaxtı çox olan adamı da tapacağam".

Qeyd edək ki, Farah Zeynəb Abdullah "Bergen" filmində baş rolu canlandırıb.

Çində yoluxanlar 100 minə çatdı

Kovid xəstəxanaları açılır

Çində son 1 ildə yoluxma üzrə ən yüksək rəqəm qeydə alınıb.

Medicina.az xəbər verir ki, yeni tip kovidlə yoluxanların sayı pandemiya dövründə ilk dəfə olaraq 100 min nəfərə çatıb.

Çin Səhiyyə və Gigiyena Komitəsinin verdiyi məlumata görə, xəstəxana və xüsusi karantin müəssisələrində hazırda xəstələrin sayı 109 min 88 nəfərdir. Hər ötən gün rəqəmlər 9% artır.

Ötən sutka 13 268 yoluxma qeydə alınıb.

Məlumatda bildirilir ki, xəstələrdə yüksək hərarət, öskürək əlamətləri var.

Amma yoluxanların cəmi 1500 nəfərində xəstəlik əlamətləri görülür, qalanları simptomsuz daşıyıcılardır.

Lakin onlar da təcrid olunub xəstəxanaya yerləşdirilir ki, virusu yaymasınlar.

Son 4 gündə simptomsuz daşıyıcıların sayı 41% artıb.

Yoluxanların 1%-i xaricdən gəlib.

Bütün pandemiya dövründə Çində yoluxanların sayı 125 min nəfər idi, 4638 nəfər isə koviddən ölüb. Ölkədə epidemik vəziyyət ciddi olaraq qalır.

Tüksüz oğlaq doğuldu

Ona körpə uşaq libası geyindirdilər

Türkiyənin Mərsin bölgəsində təsərrüfatla məşğul olan Tosun ailəsinin keçilərindən biri əkiz oğlaq doğub. Oğlaqlardan biri doğulduqdan az sonra tələf olub. Əkiz tayı isə sağ qalıb. Ailəni təəccübləndirənsə nə keçinin əkiz oğlaq doğması, nə də oğlaqlardan birinin tələf olmasıdır.

Təəccüblü olan oğlağın tüksüz doğulmasıdır. Sağ qalan da elə bu tüksüz oğlaqdır. Bu barədə "NTV.com.tr" məlumat verir. Bildirilir ki, tüksüz oğlaq ailənin sevimlisinə çevrilib. Oğlaq tükləri çıxanadək üşüməsin deyə, Tosun ailəsi ona kiçik yaşlı nəvələrinin libasını geyindirir. Ailə başçısı Hüseyin Tosun oğlağı evə gətirib və sobanın yanında ona yer hazırladıb. Ailə bu tüksüz oğlağa körpə uşağa qayğı göstərildiyi kimi baxır. Oğlaq 3 gün əmziklə yedizdirilib. 3 gün sonra ayaq üstə durmağı bacaran oğlağı ana keçi ilə görüşdürüblər və oğlaq anasını əmməyə başlayıb. Tüksüz oğlaq barədə eşidib-bilən onu görməyə gəlir. Gələnlər oğlaqla şəkil çəkdirib, sosial mediada paylaşır. H.Tosun oğlağın dünyaya gəlməsindən danışıb: "Doğulduğunda dərisi tamam tüksüz idi. Mavi rəngə çalırdı. Ertəsi gün rəngi qaraldı. Ona bir körpəyə baxar kimi qulluq

Cüt doğulan, amma tək qalan tüksüz oğlağı Mərsində görməyə gəlirlər

edirik. Bir gün hərarəti qalxdı. Nəvələrimizə içirdiyimiz temperatur salan siroplardan ona da içirdik, iynə vurduq", deyib. H.Tosunun 5 yaşlı nəvəsi Aysel də oğlağı çox sevir, bəsləyir. Tüksüz oğlağı "çox yumşaqdır", deyə əzizləyir.

Məlahət

Kabab qanlı, igid canlı...

İngiltərədə kabab festivalının qalibi kişi yox, qadın olub

Ankara Anlaşması şərtləri daxilində ilə 5 il əvvəl Böyük Britaniyaya köçən türkiyəli Fatma Güngör "British Kebap Awards - İngiltərə Kabab Ödülləri" yarışmasının qalibi olub. Fatma Güngör həm də bu yarışmada qalib olan ilk qadındır.

"Heç vaxt kababçı olmaram, demişdim, demək ki, böyük-böyük danışmışam", söyləyən Fatma Güngör həyat hekayəsini anladıb. "Şərq" Milliyet.com"a istinadən türk iş qadınını uğura aparan yola işıq salıb. Fatma Güngör əslən Türkiyənin İzmir bölgəsindəndir. Peşəsi şef aşbazlıqdır. Aşbazlığa Türkiyədə başlayıb. Bir kafe, restoran açmaq ən böyük xəyalıymış. Türkiyə ilə Avropa ölkələri arasında mövcud olan Ankara Anlaşmasına uyğun olaraq (bu anlaşma ölkələr və xalqlar arasında yaxınlaşmanı da nəzərdə tutur) İngiltərəyə gəlib və burada bir neçə restoranda aşbaz olaraq çalışıb. Pandemiya dövründə karantin rejimi səbəbindən bir çox iaşə obyektləri müflisləşib. F.Güngör belə bir çətin zamanda müflisləşməyə doğru gedən bir restoranı satın alıb və işə başlayıb. Çox çətin olub, amma o, bacarıb. Şəxsi restoranını açmağın sevincini yaşayıb.

F.Güngör bunu avantaj hesab edir: "Şəxsi restoranın varsa, daha güvənlisən. Restorana ev sahibliyi etmək əlavə üstünlüklər verir, bu işi bacardığının fərqinə varırsan və qorxmursan. Başqa birinin "əlinin altında" deyilsən artıq, azadsan və qərarları özün verirsən. Şəxsi iradəylə sahibləndiyi şeyləri görmək güvən hissini artırır". F.Güngör restoranını türk mətbəxi olaraq işlədib, lakin burada kabab da bişirilib, müştərilərə təqdim edilib. İngiltərədə türklərin ən məşhur və daha çox tələb olan yeməyi məhz kababdır. Orada türk kababçıları çoxdur. Amma yalnız kabab, ya da dönər bişirib satırlar. F.Güngörün üstünlüyü türk mətbəxinin digər yeməklərindən sifariş edirlər".

Fatma Güngör: "Türk mətbəxinin o qədər gözəl ləzzətləri var, onları təqdim edəcəm"

Mələhət

Dünyanın ən uzun qadını...

Daha 3 yeni rekorda imza atıb

Dünyanın ən uzun boylu qadını olan Rümeysa Gelgi daha 3 yeni rekorda imza atıb.

"Şərq" NTV-yə istinadən xəbər verir ki, R.Gelgi ilin əvvəlində 3 yeni titul üçün müraciət etdiyini bildirib. O artıq dünyanın ən uzun kürəyi, ən uzun barmaqları və ən böyük əllərinə sahib olan qadını olduğunu qeyd edib.

Qeyri-adi fiziki fərqlərlə doğulduğunu bildirən Gelgi bunları deyib:

"Mümkün qədər tanınmaq və qeyd olunmaq istədim. Ümid edirəm ki, bu, görünən fərqləri olan hər bir insana özlərini olduğu kimi qəbul etməyə ilham verəcək.

Əslində, onlar özlərini olduğu kimi qəbul etdikdə, dünya onları qəbul edir, hətta bu qeyri-adi xüsusiyyətlərə görə mükafatlandırır".

Sağ əlinin 24,93 santimetr, sağ orta barmağının 11,2 santimetr, kürəyinin isə 59,9 santimetr olduğunu bildirən Gelgi, ümumilikdə 5 dəfə dünya rekordçusu olduğunu bildirib:

"Bu, böyük qürur və şərəfdir. Mən bilmirəm, bədən fərqləri kateqoriyasında dünyada bu qədər titulla başqa bir rekordçu varmı. 8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə İstanbulda keçirilən universitet tədbirində məruzəçi kimi iştirak etmişəm. Bu yaxınlarda Almaniyada Erasmus tələbələrinin tədbirinə dəvət almışam. Hekayəmi yeni insanlarla paylaşma şansı qazandım. Getdikcə, çox xoşbəxt və motivasiyalı oluram. Hekayəmi dinləyənlərə ümid verirəm. İnsanlara kiçik bir töhfəm də olur."

Çimnaz Şahlar

Elektriklə işləyən ən böyük layner ilk səyahətini başa vurub

Enerji ilə 100 kilometr məsafə qət edə bilən layner ildə 530 ton yanacağa qənaət etməyə imkan verəcək

Dünyanın elektriklə işləyən ən böyük kruiz layneri - "Yantszı çayı Üç Dərə-1" ilk reysini başa vurub.

Azərtac bildirir ki, Çinin İçan şəhərində ilk səfərini edən layner tam elektriklə işləyir. Yantszı çayında turizm səfərlərində istifadə üçün inşa edilən laynerin uzunluğu 100 metr, eni 16,2 metrdir. 1600 sərnişin tutumu olan laynerin akkumulyatorunun gücü 7500 kilovat/saatdır. Həmin enerji ilə 100 kilometr məsafə qət edə bilən layner ildə 530 ton yanacağa qənaət etməyə, habelə karbon emissiyasını 1660 ton azaltmağa imkan verəcək.

Sponsorları Çinin Sənaye və İnformasiya, Nəqliyyat nazirlikləri olan laynerin hazırlanmasına 150 milyon yuan (23,5 milyon ABŞ dolları) sərf olunub.

Qeyd edək ki, bu cür layihələr Çinin karbon emissiyasını 2060-cı ilədək tam azaltmaq hədəfinə çatmaqda əhəmiyyətli rol oynayacaq.